QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 175 (5895) **25 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# "Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi Avropanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir"

*Prezident İlham Əliyev Fransanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Səh 2

3

"Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları



12

Zori Balayanın nəvəsi Paşinyanın oğlunu döyüb



12

Zümrüd Yağmur: "Əlimdəki faktları yaysam, AXCP-nin süqutu olacaq"



# "Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi Avropanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir"

*Prezident İlham Əliyev Fransanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Zakari Qros fəxri qarovul dəstəsinin qarşısından keçdi. Zakari Qros etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Səfirlə söhbət edən Prezident İlham Əliyev dedi:

-Sizə Azərbaycanda xoş günlər arzulayıram. Artıq uzunmüddətli və çox uğurlu bir tarixə, böyük potensiala malik əməkdaşlığımızın əhatə dairəsini nəzərə alaraq ümid edirəm ki, dolğun bir gündəliyiniz olacaq. Əlbəttə ki, əməkdaşlığımızın inkişaf mərhələləri sizə yaxşı məlumdur. Bilirsiniz ki, Azərbaycan hər zaman sizin ölkənizi dünyanın ən mühüm tərəfdaş ölkələrindən biri kimi qəbul edir. Mənim Parisə çoxsaylı səfərlərim və Prezident Şirak, Prezident Sarkozi və Prezident Olland ilə, həmçinin ötən il Prezident Makron ilə olan görüşlərimin hamısı və digər yüksək səviyyəli rəsmilərlə görüşlərim əməkdaşlığımızın inkişafında çox böyük rol oynamışdır. Təsadüfi deyil ki, fransız şirkətləri Azərbaycanda bir çox mühüm layihələr həyata keçiriblər. Xatırlayıram ki, Prezident Ollandın səfəri zamanı bir neçə milyard dollarlıq müqavilələr imzalandıq. Onlardan bir hissəsi artıq icra edilib, digərləri isə icrasını gözləyir. Fransız şirkətləri burada çox geniş təmsil olunur. Əlbəttə, MEDEF ilə çoxsaylı görüşlərim haqqında da məlumatlısınız. Son dəfə bu görüş burada, Bakıda keçirildi. Fransada və burada da görüşmüşük. Qarşılıqlı böyük maraq və yaxşı nəticələr var. Düşünürəm ki, bu sahədə möhkəm əməkdaşlığımız var və bu əməkdaşlıq böyük perspektivlərə malikdir. Əlbəttə ki, siyasi əlaqələrimiz də şirkətlər arasında əməkdaşlıq və iqtisadi sahədəki əlaqələrin inkişafında mühüm rol oynayır. Ötən il Prezident Makronla görüşüm əlaqələrimizin gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından çox önəmli idi. Bu görüş bugünkü tərəfdaşlığın inkişaf etdirilməsində mühüm rol oynadı. Əlbəttə ki, nazir Lö Merin səfəri də çox uğurlu oldu. Biz münaqişənin həlli məsələsində də əməkdaşlıq edirik və danışıqların hansı fazada olduğunu bilirik. Əlbəttə ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında da sizin ölkəniz mühüm rol oynayır. İyul ayında Prezident Tuskun da səfəri çox uğurlu idi. Beləliklə, əməkdaşlığımız çox geniş gündəliyə malikdir. Əminəm, görüləsi işləriniz çoxdur və ümid edirəm ki, mövcud əlaqələrimizin müsbət dinamikası fəaliyyətiniz dövründə də davam etdiriləcək.

Səfir Zakari Qros:

-Təşəkkür edirəm. Prezident Makronun ən səmimi salamlarını Sizə çatdırıram. Burada, gözəl və uğurla inkişaf edən şəhərinizdə olmağımdan çox məmnunam. Artıq Sizin də qeyd etdiyiniz kimi, bizim möhkəm ikitərəfli münasibətlərimiz mövcuddur və bu məsələdə Sizin şəxsi töhfəniz bizim üçün çox önəmlidir. Təhlükəsizlik məsələləri mühüm əhəmiyyətə malikdir. Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi Avropanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir. Regionda gərginliyin mövcudluğu şəraitində - İran məsələsində Prezident Makron gərginliyin aradan qaldırılmasına səy göstərir. Əlbəttə ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa münaqişənin dinc yolla, ölkənizin ərazi bütövlüyünə hörmət prinsipi çərçivəsində həllini arzulayır və bu sahədə fəal olmaq niyyətindədir. Biz ölkələrimiz arasında siyasi dialoqu davam etdirməyə ümidvarıq. Sizin də qeyd etdiyiniz kimi iqtisadiyyat, energetika, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlıq bizim üçün çox vacibdir.

Prezident İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fransa Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

# Xorvatiya Azərbaycanla geniş tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Xorvatiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Branko Zebiç fəxri qarovul dəstəsinin qarşısından keçdi.**



Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir dedi: -Sabahınız xeyir, cənab Prezident. Adım Branko Zebiçdir. Xorvatiyanın səfiriyəm. Burada olmaq, etimadnaməni təqdim etmək və Sizin çox yaxşı tanıdığınız Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarını Sizə çatdırmaq mənim üçün şərəfdir.

Prezident İlham Əliyev:

-Mənim salamlarımı xanım Prezidentə çatdırmağınızı xahiş edirəm. Mən bizim görüşlərimizi, xüsusilə ötən il ölkənizə rəsmi səfərim zamanı keçirdiyimiz görüşü xatırlayıram. Apardığımız müzakirələr ölkələrimiz arasında tərəfdaşlığın inkişafına xidmət edir. Düşünürəm ki, biz bir sıra sahələri əhatə edən çox səmərəli əlaqələr qurmağa müvəffəq olmuşuq. Əlbəttə ki, xanım Prezidentin Azərbaycana rəsmi səfəri və mənim ölkənizə səfərim əməkdaşlığımızın çox mühüm nümunələridir. Əminəm ki, özünüzü Azərbaycanda evinizdəki kimi hiss edəcəksiniz, çünki ölkələrimiz arasındakı dostluq münasibətləri xalq diplomatiyasını da əhatə edir. Düşünürəm ki, son illərdə Xorvatiyada daha çox adam bizim barəmizdə məlumatlı olub və daha çox azərbaycanlı sizin ölkəniz barədə məlumat əldə edib. Bu səbəbdən də düşünürəm ki, Azərbaycanda bir neçə il fəaliyyət göstərmək çox xoş olacaq. Əminəm ki, siz ənənəvi sahələrdə əməkdaşlığımızın güclənməsinə, həmçinin tərəfdaşlığımızın yeni sahələrinin tapılmasına öz töhfənizi verəcəksiniz. Sizə ölkəmizdə xoş günlər və uğurlar arzulayıram.

Səfir Branko Zebiç:

-Təşəkkür edirəm. Mən özümü çox yaxşı və artıq evimdəki kimi hiss edirəm. Mən bundan əvvəl bir il müddətində müvəqqəti işlər vəkili işləmişəm. Siz Zaqrebə səfər edən zaman mən Azərbaycanda yaşamağa başladım. Mən Xorvatiya nümayəndə heyətinin tərkibində idim. Baş Nazir məni Sizə təqdim etdi və mənim burada səfir olacağıma dair söz verdi. Lakin bu, Xorvatiyada bir qədər vaxt tələb etdi. Prosedur belədir.

Prezident İlham Əliyev: Azərbaycanda yaxşı yerləşmisiniz?

Səfir Branko Zebiç: Bəli, yaxşı yerləşmişəm, özümü evimdəki kimi hiss edirəm. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığı gücləndirmək və genişləndirmək üçün çoxlu sahələr var. Söhbət təkcə iqtisadi əməkdaşlıqdan getmir. Bu sahədə işlər çox yaxşı gedir. Xorvatiyanın Azərbaycanda ilk daimi səfiri kimi mən xüsusilə xalqlar arasında əməkdaşlığı genişləndirmək istərdim.

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

# “Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq hərtərəfli inkişaf edir”

*Prezident İlham Əliyev Litvanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Eqidius Navikas fəxri qarovul dəstəsinin qarşısından keçdi. Eqidius Navikas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.***



Sonra səfirlə söhbət edən Prezident İlham Əliyev:

-Sizi yenidən görməyimə şadam, Azərbaycana xoş gəlmisiniz. Ölkəmizdə sizə xoş günlər arzulayıram. Əminəm ki, Azərbaycanda çalışdığınız müddətdə bizim ənənəvi dostluq münasibətlərimiz uğurla inkişaf edəcək, yeni sahələri əhatə edəcək. Bizim ölkələr yaxşı tərəfdaşlardır, köhnə dostlardır, bir-birimizi çoxdan tanıyırıq və uzun müddət ərzində fəal əməkdaşlıq edirik. Yəqin ki, mənim sizin prezidentlərlə əlaqələrim barədə xəbərdarsınız. Cənab Adamkusla biz Bakıda da, Vilnüsdə də tez-tez görüşmüşük. Eləcə də Prezident Qribauskayte ilə də bizim çox yaxşı münasibətlərimiz olub. Belə ki, bizim əlaqələrimizin tarixi kifayət qədər müsbətdir. Ona görə də düşünürəm ki, münasibətləri irəli aparmaq üçün xeyli işiniz olacaq.

Əməkdaşlığın ənənəvi və yeni sahələri mövcuddur. Əlbəttə, ticari-iqtisadi əməkdaşlıq cəhətdən müəyyən işlər görülməlidir. Əmtəə dövriyyəsini artırmaq mümkündür. Ticari-iqtisadi əlaqələri artırmaq məqsədilə müəyyən işçi qruplar yaratmaq olar. Biz bütün digər istiqamətlərdə də ənənəvi əməkdaşlığı davam etdirmək, tərəfdaşlığı möhkəmləndirmək niyyətindəyik. Əməkdaşlıq həm də hansısa konkret nəticəyə yönəlməlidir. Sizə ölkəmizdə yaxşı günlər və Azərbaycanda fəal işləməyi arzulayıram.

Səfir Eqidius Navikas:

-Çox sağ olun cənab Prezident. Mən, ilk növbədə, Sizə Litva Prezidenti cənab Nausedanın ən xoş arzularını, eləcə də Sizin Litvaya səfərinizlə bağlı dəvəti çatdırmaq istəyirəm. Əlbəttə, mənim üçün Azərbaycanda səfir olmaq böyük şərəfdir və bundan çox şadam. Mən, həmçinin çox şadam ki, artıq qeyd etdiyiniz kimi, dost münasibətlərin və əməkdaşlığın sanballı bazası, təməli var. Mən Bakıda olduğum müddətdə xalqlarımızın çox yaxşı, müsbət əlaqələrinin mövcudluğunu hiss etdim.

Səfir Azərbaycan və Litva arasında yüksək səviyyəli siyasi dialoqun məmnunluq doğurduğunu bildirdi. Eqidius Navikas ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında şəhərlərarası əlaqələrin vacibliyinə toxunan səfir Litva və Azərbaycanın 3 şəhəri arasında qardaşlaşma münasibətlərinin qurulduğunu bildirdi. Səfir Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə toxundu və ölkəsinin Avropa İttifaqının “Tvinninq” layihələri çərçivəsində Azərbaycanla yaxından əməkdaşlıq etdiyini dedi.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın hərtərəfli inkişaf etdiyini, ötən müddət ərzində Avropa İttifaqı rəhbərliyinin Azərbaycana səfərlərini və özünün Avropa İttifaqının mənzil-qərargahına səfərini xatırladaraq Avropa İttifaqı üzv ölkələrinin bu əməkdaşlığın inkişafına verdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğuladı.

Prezident İlham Əliyev Litva Respublikasının Prezidenti Gitanas Nausedanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş etdi.

# “Şərq-Qərb”, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları

***Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi Azərbaycanı əsrlərboyu transmilli dünya güclərinin xüsusi maraq dairəsində saxlamışdır. Əlverişli geosiyasi və coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaratmışdır. Həm ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev mövcud reallığı müstəqil Azərbaycan dövləti üçün əsas şanslardan biri kimi düzgün dəyərləndirərək, ötən 25 ildə bundan həm yeni neft strategiyasının, həm də transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində başlıca amil kimi məharətlə istifadə etmişlər. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.***



*Əli Həsənov*
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor*

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun “Şərq-Qərb”, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları” sərlövhəli analitik məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Bir qədər əvvəl yazdığım “Əsrin müqaviləsi” - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə” adlı məqalədə ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş yeni neft strategiyası və onun uğurlu nəticələrindən geniş danışmışdım. Bugünkü məqalədə isə həyata keçirilən siyasi strategiyanın digər mühüm istiqamətindən - Azərbaycanın üçüncü minillikdə beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi ilə bağlı 1993-cü ildən həyata keçirilən dövlət siyasəti və onun görünən nəticələri haqqında bəhs etmək istəyirəm.

Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti, qeyd etdiyim kimi, dövlətin 1993-cü ildən xarici iqtisadi və geosiyasi əlaqələr sahəsində həyata keçirdiyi iki əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə olunan bir neçə mühüm istiqaməti xüsusi qeyd edirlər. Bunlar:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafından;
- Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
- “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulmasından;
- Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsindən;
- Logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
- Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TASİM layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
- müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsindən;
- yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətdən;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanmasından və s. ibarətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 16 ildə neftdən gələn gəlirlərin də bir qismini cəlb etməklə, ilk növbədə, ölkəni xarici aləmlə bağlayan əksər avtomobil və dəmir yolları, hava və su nəqliyyatı infrastrukturları, quru, hava və su nəqliyyatına aid kommunikasiyalar, rabitə-informasiya texnologiyaları modernləşdirilmiş, yenidən qurulmuş, yaxud hazırda qurulur. Azərbaycanın üç telekommunikasiya peyki - “Azərspace-1”, “Azersky” və “Azərspace-2” orbitə çıxarılmış, Xəzər dənizinin dibi ilə Avropanı Asiya ilə birləşdirəcək kommunikasiya vasitələrinin çəkilişinə start verilmişdir. Azərbaycanın regional və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin dəstəklənməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət ölkəmizi qısa müddətdə Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevirmişdir.

*Ardı Səh. 4*

# "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları

Əvvəli Səh. 3

XX əsrin son onilliyində Avropa İttifaqının maliyyə yardımı, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi səyi ilə reallaşdırılan "İpək Yolu" (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü-liderliyi ilə inşa olunan və 2017-ci il oktyabrın 30-da istismara buraxılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Trans-Avropa-Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş, bununla da qədim İpək Yolunun polad magistrallar üzərində bərpası işi başa çatdırılmışdır.

Məlumdur ki, TRASEKA layihəsinin də əsas təşəbbüskarlarından biri ümummilli lider Heydər Əliyev olmuşdur. Məhz onun təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və yekunda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Bakı Bəyannaməsi və Çoxtərəfli Saziş" imzalanmış, TRASEKA-nın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Həmin dövrdə bəzi regional və beynəlxalq dairələrin əsassız qısqanclığına baxmayaraq, TRASEKA layihəsinin qədim İpək Yolu üzərində yenidən qurularaq əksər region ölkələri üçün çox böyük əhəmiyyət kəsb etməsi sübuta yetirilmişdir. Bu layihənin cəlbediciliyi, ilk növbədə, onunla ölçülürdü ki, o, eyni zamanda, Rusiyanın, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın daha əlverişli dəhliz vasitəsilə Avropa və dünya bazarlarına, o cümlədən geriyə çıxışını asanlaşdırırdı, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafına, dünya iqtisadiyyatı ilə inteqrasiyasına mühüm şərait yaradırdı.

TRASEKA layihəsi işə düşəndən, xüsusən BTQ istifadəyə veriləndən sonra Çindən başlayaraq Orta Asiyaya, Cənubi Qafqaza, sonra da Türkiyə vasitəsilə Avropaya, o cümlədən geriyə daşınan yüklərin çatdırılması müddəti dəniz daşımalarına nisbətən iki dəfədən çox qısalmışdır. Mütəxəssislərin fikrinə görə, bu dəhliz hazırda Avropanı Asiya ilə birləşdirən ən əlverişli, qısa və təhlükəsiz nəqliyyat dəhlizi hesab olunur. Onun vasitəsilə son illərdə daşınan malların həcmi bir neçə dəfə artmış və BTQ qitələri bağlayan ən əlverişli nəqliyyat körpüsü rolunu oynamağa başlamışdır.

Əsas qayəsi regionda və dünyada iqtisadi əlaqələrə, rifaha, sülhə, sabitlik və təhlükəsizliyə xidmət etməkdən ibarət olan BTQ vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, bu ərazidə yaradılan Azad Ticarət Zonası və s. mühüm infrastruktur layihələri Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi rol oynamışdır. Azad Ticarət Zonası yaxın gələcəkdə beynəlxalq yükdaşıma və Avropa-Asiya logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, həm də yerli istehsalın təşviqi, "Made in Azerbaijan" brendinin dünya üzrə tanınmasına müstəsna xidmət göstərəcəkdir. Azad Ticarət Zonasının regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməsi planlaşdırılır. Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.

BTQ layihəsinin ölkəmiz üçün digər geosiyasi üstünlüklərindən biri də ondan ibarətdir ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu da müvafiq surətdə qardaş dövlətlər arasındakı münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Digər məsələ bu layihənin yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikasına qədər uzadılmasıdır. Layihə çərçivəsində Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə şərait yaradacaqdır.

Azərbaycanın üçüncü minilliyin əvvəlindən xüsusi maraq göstərdiyi, son illərdə fəal şəkildə qoşulduğu və bundan sonra funksionallığı ciddi şəkildə yüksələn başqa bir transmilli nəqliyyat layihəsi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi hesab olunur. Qeyd etmək istəyirəm ki, TRASEKA layihəsində olduğu kimi, Azərbaycan Respublikasının "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulması təşəbbüsü də ümummilli lider Heydər Əliyevə məxsusdur. Məhz onun razılığı əsasında 2001-ci ildən başlayaraq Azərbaycan Respublikasını təmsil edən nümayəndələr Rusiya və İranın müvafiq qurumları ilə bu istiqamətdə müzakirələrə qoşulmuşlar. 2004-cü il mayın 19-21-də Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyəti Moskva şəhərində keçirilən Rusiya və İran dəmir yolu rəhbərlərinin müşavirəsinə qatılmış və üçtərəfli razılığa müvafiq olaraq "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə Beynəlxalq Konsorsiumun yaradılmasında iştirak etmişdir. Sonrakı dövrdə hər üç ölkənin dəmir yollarına tranzit yük axınının cəlb edilməsi, birgə layihə-axtarış işlərinin görülməsi, ümumi məsələlərin və birgə işlərin əlaqələndirilməsi istiqamətindəki fəaliyyəti təmin olunmuşdur. 2005-ci il iyulun 24-27-də Tehran şəhərində və 2005-ci il fevralın 9-da Bakıda "Şimal-Cənub" nəqliyyat dəhlizinin tikintisi, gələcək istismarı, beynəlxalq konsorsiumun yaradılması və maliyyələşdirilməsi üsulları, hər bir tərəfin tikintidə payı, qoyulacaq əsaslı vəsaitin qaytarılması yolları və digər məsələlər müzakirə edilmiş və razılığa gəlinmişdir.

Məlum olduğu kimi, Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək "Şimal-Cənub" nəqliyyat dəhlizi haqqında ilk razılaşma aktı Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmışdır. Azərbaycan, qeyd edildiyi kimi, bu sazişə beş il sonra - 2005-ci ildə qoşulmuşdur. Sonrakı illərdə, ümumilikdə, 13 dövlət bu sazişə imza atmış və müvafiq olaraq ratifikasiya etmişdir. Bunlar Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə və Ukraynadır.

Mütəxəssislərin fikrinə görə, "Şimal-Cənub" nəqliyyat dəhlizinin əsas məqsədi, ilk növbədə, cənubdan - Hindistandan başlayaraq Rusiyaya, Şimali və Qərbi Avropaya, eləcə də Körfəz ölkələrinə daşınan yüklərin çatdırılma müddətini azaltmaq, daşıma qiymətlərini ucuzlaşdırmaq və dəhlizin funksionallığını artırmaqdan ibarətdir. Dəhliz bir neçə əsas istiqamət: Hindistan-Rusiya-Qafqaz-Körfəz ölkələri; Mərkəzi Asiya-Körfəz ölkələri; Xəzər dənizi-İran İslam Respublikası-Körfəz ölkələri və s. üzrə yükdaşıma fəaliyyətini nəzərdə tutur. Bu istiqamətlər içərisində Azərbaycan üçün ən maraqlı istiqamət yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirilməsi, sonra qatar və avtomobillərlə İranın mövcud dəmir və avtomobil yolları ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir və avtomobil yollarına ötürülməsi və buradan da Azərbaycan vasitəsilə Rusiyaya, Şimali Avropa ölkələrinə və s. çatdırılmasıdır. Hazırkı marşrut üzrə (Süveyş kanalı) malların çatdırılma vaxtı 45-60 gündür, "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə isə bu müddətin 14-20 gün olması gözlənilir.

Azərbaycan Hökuməti "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, sonrakı müddətdə "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması prosesində fəal rol oynamış, ölkənin hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilməsinə nail ola bilmişdir. Dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində yaxın müddətdə gözlənilən yük daşımalarının həcmi təxminən birinci mərhələdə - 3 milyon ton, ikinci mərhələdə - 5-8 milyon ton və üçüncü mərhələdə - 15 milyon ton nəzərdə tutulur ki, buna nail olmaq istiqamətində də ciddi addımlar atılır.

Hazırda mövcud nəqliyyat dəhlizinin reallaşması üzrə işlər çox intensiv şəkildə gedir və Azərbaycan hissəsində proses artıq son mərhələyə qədəm qoymuşdur. Astara (AR)-Astara (İİR) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər olan 8,3 kilometr yeni yolun, Astaraçay üzərindəki körpü və İran ərazisindəki 1,4 kilometr yolun tikintisi tamamlanmışdır. Bu dəhlizin Qəzvin-Rəşt (175 km) hissəsinin tikintisi ilə bağlı İran tərəfi ilə danışıqlar aparılır və işlər başlanmaq üzrədir. Azərbaycan bu dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Rəsmi Bakı İran tərəfinə bəhs olunan dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kredit ayırmağı nəzərdə tutub. Digər bir istiqamət - Şimal istiqaməti üzrə, Samur çayı üzərindən Samur (Azərbaycan)-Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası və dəmir yolu xətlərinin genişləndirilməsi ətrafında iş gedir. Dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib.

Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşulmaqla, ilk növbədə, özünün həm Rusiya, həm də İranla quru sərhədinin əlverişli coğrafi xarakteristikasından səmərəli istifadə edərək üçtərəfli regional əməkdaşlığı inkişaf etdirmək və mövcud şəraitdən bəhrələnərək yeni-yeni dividendlər əldə etmək istəyir. Bundan başqa, Azərbaycan gələcəkdə bu istiqamətdə qonşu Gürcüstanın ərazisini və kommunikasiyalarını da işə salmaqla "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin inteqrasiyasını sürətləndirməyi nəzərdə tutur. Bu sahədə ən önəmli rolu, ilk növbədə, BTQ, Bakıdan Gürcüstandan keçməklə Türkiyəyə qədər uzanan avtomobil yolları, Xəzər dənizində və Qara dənizdə Azərbaycanın inşa etdiyi limanlar, o cümlədən Türkiyə və Gürcüstan ərazisindəki dəniz və dəmir yolu limanları oynayacaqdır. Dəhlizin yaradacağı imkanlardan Azərbaycanla yanaşı, Rusiya, İran, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları da istifadə edəcəklər.

Bundan başqa, xüsusi qeyd edilməlidir ki, "Şimal-Cənub" dəhlizi layihəsi Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası ərazisində dəmir yolu əlaqələrinin, həmçinin bu ölkələrin tranzit və iqtisadi potensialının gücləndirilməsinə xidmət edəcək, beynəlxalq yüklərin bu istiqamətə daha çox miqdarda axınına təkan verəcək. Azərbaycanın bu dəhlizdən gözləntiləri xüsusən çoxdur. "Şimal-Cənub" nəqliyyat dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya və Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcəkdir.

Son dövrlərdə "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regiondakı fərqli qütblər arasındakı geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda, Azərbaycan həm özünün multikultural və sabit ictimai-siyasi cəmiyyət həyatı ilə, həm də yürütdüyü balanslı xarici siyasət və tərəfdaşlıq kursu ilə xüsusi iqtisadi-siyasi dividendlər qazanmağı hədəfləyir. Bu hədəflərin ən mühümü, iqtisadi sahədə fəaliyyətin şaxələndirilməsi, post neft dövründə ölkəmiz üçün qeyri-neft sahəsindəki fəaliyyətdən əlavə gəlir mənbəyi əldə etməkdirsə, siyasi və geosiyasi sahədə regionda müstəqil siyasət yürüdən dövlət imicini qorumaq, regionda və dünyada bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə, təhlükəsizlik sahəsində həmılıqla beynəlxalq hüquq normalarına əməl etmək və s. ibarətdir.

Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizinin xüsusi əhəmiyyətini nəzərə alaraq, son dövrdə İran və Rusiya istiqamətində yeni kommunikasiyaların yaradılmasına xeyli investisiya yatırmışdır ki, bu da ölkənin beynəlxalq aləmdəki etibarlı tərəfdaş imicini gücləndirmişdir. Bundan əvvəl, ölkəmizin liderliyi ilə BTQ-nin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilib istifadəyə verilməsi, bu məkanda azad iqtisadi zonanın yaradılması, Azərbaycanı bir tərəfdən Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), digər tərəfdən Cənubi Asiyanı (İran və Hindistan) Şimalla birləşdirən nəqliyyat qovşağının mərkəzinə çevirmişdir. Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər "Şimal-Cənub" layihəsinin reallaşması işini bir qədər gecikdirsə də, bu problemin Azərbaycanla bağlı olmadığı aydındır. Azərbaycan Respublikası öz öhdəsinə düşən bütün infrastruktur layihələrini uğurla həyata keçirmiş və istismara qəbul etmişdir.

## Azərbaycanın tərəqqisi xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir



Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması, ölkədə sabitliyin və təhlükəsizliyin təmin edilməsi, insan kapitalının inkişafı, xalqın mədəni və milli-mənəvi irsinin qorunub saxlanılması, mühüm transmilli enerji və nəqliyyat layihələrinin gerçəkləşdirilməsi xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Səs" Media Holdinqin rəhbəri Bəhruz Quliyev deyib. Bəhruz Quliyev bildirib ki, dövlətimizin başçısının həyata keçirdiyi prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində ölkədə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulub, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunda güclü potensialın formalaşdırılması, əhalinin sosial təminatı sahəsində inqilabi nəticələr əldə olunub. Bunu təkcə yerli siyasi və iqtisadi ekspertlər deyil, həm də dünyanın nüfuzlu reytinq və beynəlxalq təşkilatlar də etiraf edirlər. Digər tərəfdən, Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər dünya ölkələrinə nümunə olaraq göstərilir.

"Azərbaycanda güclü sosial siyasət həyata keçirilir. Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir", - deyən B.Quliyev əlavə edib ki, ilin əvvəlindən dövlətimizin başçısının təsdiqlədiyi iki böyük sosial paketin reallaşdırılması nəticəsində Azərbaycanda minimum əməkhaqqı və pensiya qaldırılıb, qaçqın və məcburi köçkünlərin həyat şəraiti yaxşılaşdırılıb, şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsi təmin olunub.

"Səs" Media Holdinqin rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev hər zaman Azərbaycan xalqının yanındadır və xalqın dəstəyinə arxalanır. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Ölkə başçısı hər zaman xalqdan güc alıb, xalqımız da Prezidenti həmişə dəstəkləyib. Xalq-iqtidar birliyinin sarsılmazlığının əsasında da bu amil dayanır. Buna görə də Azərbaycan dövləti gələcəkdə daha da möhkəmlənəcək, daha da inkişaf edəcək.

## Baş katib: İƏT Ermənistanın Azərbaycana qarşı təcavüzünü hər zaman pisləyib



Ilk olaraq, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə İƏT-in bu görüşündə iştirak etdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Bu İƏT üçün Azərbaycan Respublikası ilə öz həmrəyliyini və ona davamlı dəstəyini bir daha nümayiş etdirmək, eləcə də bu böhranın sülh yolu ilə nizamlanmasına töhfə vermək üçün bir imkandır.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu fikri İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə İƏT Kontakt Qrupunun görüşündəki çıxışında deyib.

O qeyd edib ki, İƏT bu böhranı 1992-ci ildən etibarən izləyir. İƏT hər zaman Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyib, Ermənistanın Azərbaycan ərazilərinin böyük hissəsinin işğalını qeyri-qanuni hesab edib və öz etirazını bir çox platformalarda bildirib. İƏT-ə üzv dövlətlər bir daha bu məsələdə öz maraqlarını ifadə edərək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsinə, Ermənistanın Azərbaycanın işğal altında olan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair çağırış etmişlər.

Baş katib deyib: "İƏT Ermənistanın təmas xəttində mütəmadi olaraq atəşkəsi pozması hallarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində Azərbaycanın bütün səylərini, həmçinin Azərbaycan tərəfindən vaxtaşırı olaraq bu pozuntular ilə bağlı ətraflı hesabatların dərc edilməsini dəstəkləyir. İƏT-in Ümumi Katibliyi Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkünlərin əziyyətlərini dərin narahatlıqla izləyir. İƏT Katibliyi, üzv dövlətlərinə və onların müvafiq orqanlarına Azərbaycanda zərər çəkənlərə lazımi maddi və humanitar yardımın göstərilməsinə dair çağırış edib.

Dağlıq Qarabağ münaqişəsinin hər zaman ədalətli və sülh yolu ilə həll edilməsinə çağıran İƏT bu xüsusda bütün səyləri və təşəbbüsləri təşviq edir. İƏT Kontakt Qrupunun bu məsələyə lazımi əhəmiyyətin verilməsi üçün israrlı təkidi ilə, sonuncu görüşlərdən keçən müddət ərzində bizim Azərbaycana dəstək və həmrəyliyimiz, eləcə də istər BMT Baş Assambleyası, istərsə də İƏT qətnamələrinin yerinə yetirilməsi istiqamətində səylərimiz yenidən nəzərdən keçirildi.

Xüsusilə vurğulanmalıdır ki, 2019-cu ilin may ayında Məkkə şəhərində keçirilmiş İslam Zirvə Görüşü Konfransının 14 sessiyasında Kontakt Qrupunun görüşləri təqdirəlayiq hesab edilib və onun fəaliyyətinə tam dəstək ifadə olunub. Ümid edirəm ki, bugünkü müzakirələrimiz Ermənistanı Azərbaycanın ərazi bütövlüyünə hörmət etmək və Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmağa vadar etmək məqsədilə İƏT üzv dövlətlərinin kollektiv və individual səyləri üzrə tövsiyə və təkliflərə dair razılığın əldə olunması üçün şərait yaradacaqdır".

## Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ölkələrindən ən çox Türkiyəyə məhsul ixrac edib



Bu ilin 8 ayında Azərbaycanın ən çox məhsul ixrac etdiyi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr sırasında ilk üçlükdə Türkiyə, Əfqanıstan və Misir qərarlaşıb. Türkiyəyə ixracın dəyəri 1 milyard 739 milyon 92 min dollar, Əfqanıstana 64 milyon 569 min dollar, Misirə isə 39 milyon 995 min dollar təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatında qeyd olunur ki, hər üç ölkəyə məhsul ixracımız artıb. Belə ki, ötən ilin yanvar-avqust aylarına nisbətən ixracın dəyəri Türkiyəyə 655 milyon 734 min dollar, Əfqanıstana 11 milyon 932 min dollar, Misirə isə 38 milyon 826 min dollar artıb. Qeyd edək ki, faiz göstəricinə görə Misirə ixracın dəyərində ən çox artım müşahidə olunub.

## "Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin mühüm həlqəsi olmaqla iqtisadi dividendlər qazanır"



"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi olduqca strateji bir layihədir. Layihə Azərbaycanı bu istiqamətdə mühüm nəqliyyat qovşağına çevirir. Diqqət yetirsək görərik ki, mürəkkəb regionda geostrateji qütblər arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Azərbaycan məhz burada körpü rolunu oynamaqla özünün milli maraqlarını təmin edir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Millət vəkilinin sözlərinə görə, Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin mühüm həlqəsi olmaqla özü üçün həm iqtisadi, həm də strateji maraqlarını həyata keçirmək üçün siyasi dividendlər qazanır. Hindistanın Mumbai limanından İranın Bəndər-Abbas limanına qədər gələn yolun davamı kimi Qəzvin-Rəşt-Astara yolu ilə daşınan yüklərin Rusiya Federasiyasına, oradan isə Avropanın şimalındakı ölkələrə qədər ötürülməsi heç şübhəsiz ki, nəqliyyat kommunikasiya tarixində yeni bir hadisə kimi qiymətləndiriləcək.

Hikmət Babaoğlu bildirib ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi istiqamətində çox böyük həcmdə yük daşımaları var: "Amma bu yükdaşımaları əsas etibarilə Süveyş kanalı üzərindən realizə edildiyi üçün 45-60 gün ərzində təyinat nöqtəsinə çatdırıla bilir. Lakin "Şimal-Cənub" nəqliyyat dəhlizi işə düşdükdən sonra isə bu müddət cəmisi 14-20 gün olacaq ki, bu da yeni nəqliyyat dəhlizini olduqca cəzbedici bir dəhlizə çevirəcəkdir. Çünki bu dəhliz sadəcə müddət baxımından deyil, həm də onun ətrafında olan siyasi-inzibati coğrafiyada ümumi təhlükəsizliyinin təmin olunması baxımından da mühüm əhəmiyyət daşıyır. Əlbəttə ki, Azərbaycan 2005-ci ildən bu layihəyə qoşulduqdan sonra onun çox fəal iştirakçısına çevrilib. Hətta Qəzvin-Rəşt-Astara avtomobil yolunun çəkilməsi ilə bağlı kredit ayrılıb. 2018-ci ildə İran prezidenti Həsən Ruhaninin Azərbaycana səfərindən sonra bir daha Azərbaycan və İran prezidentləri arasında bu məsələnin müzakirə olunaraq təqdir edilməsi onu göstərir ki, layihə təkcə nəqliyyat kommunikasiya layihəsi deyil, həm də qonşu dövlətlə ikitərəfli münasibətlərin inkişafına yeni impulslar verəcək bir layihədir".

Hikmət Babaoğlu qeyd edib ki, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı "Şərq-Qərb" nəqliyyat dəhlizindən sonra Azərbaycanın "Şimal-Cənub" nəqliyyat dəhlizi üzərində mühüm qovşağa çevrilməsi ölkəmizin mürəkkəb strateji regionda nüfuzunu artırmaqla yanaşı, həm də iqtisadi maraqlarını təmin etmiş olacaq.

*Ceyhun Rasimoğlu*

## "Xalqımız Prezidentin siyasətinin tam müdafiəçisidir"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin bütün siyasətinin məqsədi Azərbacyan vətəndaşıdır, onun rifah halının yaxşılaşdırılmasıdır, bu gün dünənkindən sabah isə bugünkündən yaxşı yaşamasından ötrü bərabər imkanların yaradılmasıdır". Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib.

Bu siyasət konkret olaraq özünü nədə göstərir? Hər şeydən əvvəl təkcə biz 2018-2019-cu illərə nəzər salsaq - maaşların, pensiyaların artırılması, tələbə təqaüdləri, doktorantların təqaüdləri, şəhid ailələri, müharibə veteranları, əlillərlə bağlı qərarların qəbul edilməsi digər ölkələrin tarixində çox nadir rast gəlinə bilər. Bütün bunlar hamısı cənab Prezidentimiz tərəfindən qəbul edildi və həyata keçirildi. Azərbaycan xalqı bütün bu alınan tədbirləri görür. Millətimiz dövlət siyasətimizin cənab Prezidentimizin liderliyi altında yürüdülən siyasətin tam müdafiəçisidir. Bu siyasətin alternativi yoxdur və həmin siyasətin nəticəsində Azərbaycanın çox gözəl gələcəyi var".

## Naxçıvanda dördüncü Arıçılıq məhsulları - bal festivalı keçiriləcək



Sentyabrın 28-29-da Naxçıvanda Arıçılıq məhsulları-bal festivalı keçiriləcək. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, festivalda muxtar respublikanın müxtəlif bölgələrində arıçılıqla məşğul olan ailə təsərrüfatları, sahibkarlar arıçılıq məhsulları ilə iştirak edəcəklər. "Ən yaxşı arıçılıq məhsulları-bal" nominasiyası üzrə müsabiqə təşkil ediləcək, çeşid müxtəlifliyi və keyfiyyət göstəricisinə I, II və III yerlərin qalibləri seçiləcək.

Festival zamanı Naxçıvan Muxtar Respublikasında bu sahənin tarixi, son illər arıçılığın inkişafı ilə bağlı geniş məlumat veriləcək. Musiqi kollektivləri tərəfindən konsert proqramı təqdim ediləcək. Tədbirə qatılacaq yerli sakinlər və qonaqlar üçün əl işlərinin sərgi-satışı da nəzərdə tutulub.

## Dünyaca məşhur iki ifaçı eyni səhnəni bölüşəcək

Sentyabrın 25-də Beynəlxalq Muğam Mərkəzində XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bolqarıstanın tanınmış violonçel ifaçısı Veliçka Yoçeva və Azərbaycanın Xalq artisti, pianoçu Murad Hüseynov konsert proqramı ilə çıxış edəcəklər. AZƏRTAC xəbər verir ki, Veliçka Yoçeva Beynəlxalq Muğam Mərkəzinin səhnəsində ilk dəfə çıxış edəcək. Konsertdə Azərbaycan və dünya bəstəkarlarının əsərləri səslənəcək. Biletləri iTicket.az-dan əldə etmək mümkündür.

# Paytaxtımız “IAEA - 2019” Beynəlxalq Konfransına ev sahibliyi edir

*Konfrans təhsilin səmərəliliyini artırmağa və dünyanı daha da yaxşılaşdırmağa öz töhfəsini verəcək*

***Azərbaycan ölkə təhsili üçün əhəmiyyətli hadisələrdən biri olan “Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya”nın “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusunda “IAEA - 2019” 45-ci illik Beynəlxalq Konfransına ev sahibliyi edir. Belə beynəlxalq konfransın paytaxtımızda təşkili təhsilə olan diqqətin, ən əsası isə, ölkəmizin nüfuzunun göstəricisidir.***



Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Ölkəmizdəki uğurlu inkişaf, sabitlik və əmin-amanlıq beynəlxalq tədbirlərin keçirilməsində əlverişli məkandır. Uğurla inkişaf edən Azərbaycanda, bildiyimiz kimi, təhsilin inkişafı, müasir dövrün çağırışlarına uyğun qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir və bu, davamlı xarakter daşıyır. Təhsildəki nailiyyətlər, məhz bu diqqətin nəticəsidir.

Xatırladaq ki, “IAEA”-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Bakıda ilk dəfə 2007-ci ildə keçirilib. “IAEA” 1975-ci ildən başlayaraq, hər il bu cür konfranslar keçirir. Azərbaycan MDB ölkələri arasında “IAEA” tərəfindən belə bir konfrans keçirilən ilk ölkə olub. Ötən 12 il ərzində, dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qaldığından, bütün bunlar, öz növbəsində, öyrətməyə, öyrənməyə və ümumilikdə, təhsilə təsirsiz ötüşməyib. Bu böyük dəyişikliklər təhsildə qiymətləndirmədə də dəyişikliklərə gətirib çıxarır.

Bu ilki konfransın işində Azərbaycanla birgə 55 ölkədən 300-dən çox nümayəndə iştirak edir. “IAEA - 2019” təhsilin qiymətləndirilməsini necə inkişaf etdirmək məsələsin, ön plana çəkib.

Konfransın “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusu aparılan araşdırmanın və tətbiq edilən təcrübənin mərkəzində qiymətləndirmənin məqsəd və istifadəsini ortaya qoyur. Bu konfrans təhsilin səmərəliliyini artırmaq və dünyanı daha da yaxşılaşdırmağa öz töhfəsini verəcəkdir.

**“AZƏRBAYCAN POSTSOVET MƏKANINDA MÜASİR QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİ TƏTBİQ EDƏN İLK ÖLKƏLƏRDƏN”**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Xanım Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik Beynəlxalq Konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunda, qeyd olunduğu kimi, biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusuna həsr olunan hazırkı konfrans, bu baxımdan, təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də, qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir”.

Məktubda Mehriban Əliyeva, Azərbaycanın təhsil sistemində son illərdə qazandığı uğurları qeyd edərək, Azərbaycanın postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdən olduğunu diqqətə çəkib: “Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ-hüquqi baza təkmilləşdirilmişdir. Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir”.

Konfransda qiymətləndirməyə əsaslanan qərar qəbuletmənin müxtəlif perspektivləri müzakirə edilir. Bu sıraya ibtidai təhsildə test, dil biliklərinin qiymətləndirilməsi, qiymətləndirmə sistemləri, sinif qiymətləndirməsi, qiymətləndirmə fəlsəfələri, qiymətləndirmənin yoxlanılması sistemləri, qiymətləndirmənin tərtib olunması, müəllimlərin sertifikasiyası daxildir. Həmçinin, qərar qəbuletmə, siyasətin formalaşdırılması, ali təhsil, qiymətləndirmə strategiyaları, müəllim inkişafı, psixoloji qiymətləndirmə, müəllim hazırlığı və qiymətləndirmə, yazı işlərinin qiymətləndirilməsi, diaqnostik qiymətləndirmə, qiymətləndirmə standartları, testdə keyfiyyətin təmin olunması, seçim üçün qiymətləndirmə, texnologiya, qiymətləndirmə islahatları, qiymətləndirmənin tətbiqi modelləri, qəbul proqnozları, regional inkişaf və s. müzakirə olunur.

**“IAEA - 2019” TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ PROBLEMLƏRİN MÜZAKİRƏSİ BAXIMINDAN GÖZƏL PLATFORMADIR**

Konfrans çərçivəsində “İbtidai təhsildə test”, “Dilin qiymətləndirilməsi”, “Qiymətləndirmə sistemləri”, “Sinif qiymətləndirməsi”, “Qiymətləndirmə fəlsəfələri” mövzularında sessiyalar keçirilib. Sessiyalarda çıxış edənlər mövzularla bağlı apardıqları araşdırmalardan və təmsil etdikləri ölkələrin təcrübəsindən danışıblar. Tədbir zamanı təhsilin qiymətləndirilməsi ilə məşğul olan ekspert və tədqiqatçılar öz fikirlərini bölüşür və bu sahədə mövcud çağırışlara həll yolları tapmağa çalışırlar. Sessiyalarda irəli sürülən ideya və təkliflər ölkələrin təhsil sistemlərinin daha da təkmilləşməsinə kömək edir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## ABŞ Paşinyanı arzuolunmaz şəxs elan edə bilər

*Tahir Rzayev: “Ermənistan ABŞ-da ciddi ölkə kimi qəbul olunmur”*



İşğalçı Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ səfəri uğursuz olmaqla yanaşı, qəsbkar ölkənin diplomatik fəaliyyəti də tamamilə iflasa uğraması ilə yadda qalıb. Paşinyanın Los-Ancelesə səfəri, onun ifşasını daha qabarıq şəkildə nümayiş etdirib. Belə ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün sentyabrın 22-də Los-Anceles səmalarına ingilis dilində böyük hərflərlə “Karabakh is Azerbaijan! End the Occupation!” (“Qarabağ Azərbaycanındır! İşğala Son Qoy!”) şüarını daşıyan təyyarələr qaldırılıb. Bütün günü Los- Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb. Millət vəkili Tahir Rzayev “Səs” qəzetinə açıqlamasında bildirdi ki, Paşinyanın ABŞ səfərinin uğursuzluqla nəticələnməsi, ümumilikdə, işğalçı ölkənin iflası və dünya dövlətləri tərəfində ciddi ölkə kimi qəbul olunmaması ilə əlaqələndirdi: “Paşinyanın hüquq normalarına zidd çıxışları, sərsəm bəyanatları, dövlət rəhbərinə yaraşmayan hərəkətləri öz vəziyyətini gündən-günə çətinləşdirir. Daxili qarşıdurmalar, əhalinin xaricə köç etməsi, iqtisadiyyatın çökməsi və xarici dövlətlər ilə əlaqələrin zəifləməsi ölkədəki böhranı dərinləşdirib. Başlıcası isə, erməni xalqı artıq öz rəhbərinin populist çıxışlarına, əhəmiyyətsiz siyasi gedişlərinə və gələcəyi görünməyən vədlərinə inanmır. Paşinyan öz səhvlərini komandasına daxil olan vəzifəli şəxsləri işdən azad etməklə, Qarabağa səfərləri, şit rəqsləri, millətçi ifadələrlə sığortalamağa çalışsa da, real hadisələr və insanların münasibəti baxımından, onun vəziyyətini ağırlaşdırıb. Ermənistanda vəziyyəti kəskinləşdirən, qarşıdurmalar yaradan baş nazirin Qarabağ separatçılarına lazımı dəstək verməsi və bununla da, qondarma “DQR”də hadisələrə nəzarəti ələ alması real görünmür. O, daxildən və xaricdən ciddi təsirlərə məruz qalmaqdadır”. Millət vəkilinin sözlərinə görə, Paşinyan hər vəchlə Qarabağ mafiyasından-Koçaryan və Sarkisyandan yaxa qurtarmağa çalışdığı bir dövrdə, artıq Yerevanda ona qarşı müəyyən qruplaşmalar baş qaldırmaqdadır: “Belə bir vəziyyətdə, o, Ter-Petrosiyanla gizli danışıqlar aparmaqla və xaricdə yaşayan ermənilərin etimadını qazanmaqla, düşdüyü bataqlıqdan xilas olmağa cəhd göstərir. Ancaq qonşu dövlətlərlə - Azərbaycan, Gürcüstan, Türkiyə, eləcə də, son vaxtlar Rusiya ilə ciddi problemlər yaşanan ölkənin rəhbəri heç cür vəziyyəti yoluna qoya bilmir və öz fəaliyyətsizliyi ilə erməni xalqını uçuruma aparır. Ölkədə yaranmış iqtisadi, siyasi durum artıq bir çox erməni siyasətçiləri, ziyalıları və ekspertləri narahat etməkdədir. Onların çıxışları, bəyanatları və erməni xalqına müraciətləri Paşinyanın hakimiyyətinin ömrünün sona yetişməsindən xəbər verir. Bir çox müraciətlərdən Ermənistanın bütün sahələrdə Azərbaycana uduzması fikirlərini səsləndirməsi təsadüfü deyil və bu, dövlətimizin uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir”.

***GÜLYANƏ***

## Elşad Hacıyev: Polis əməkdaşlarının hüquqi, fiziki və mənəvi hazırlığına xüsusi diqqət göstərilir



İctimai asayişin, təhlükəsiz həyatın, qanunçuluğun təminatı, sabitliyin qorunub saxlanılması, cinayətkarlıq hallarının qarşısının alınmasında polis əməkdaşlarının - hüquqi, fiziki və mənəvi hazırlığına xüsusi diqqət göstərilir.

Bunu Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a açıqlamasında deyib.

E.Hacıyev bildirib ki, bu məqsədlə polis işçilərinin bilik və bacarıqlarının artırılması üçün müntəzəm metodiki-təlim seminar-dərsləri keçirilir. Dərslərdə cəmiyyət tərəfindən polislərin davranışında qəbul olunan və olunmayan dəyərlər, qanunvericiliyin tələbləri izah edilir. Polisin cəmiyyət qarşısında məsuliyyətini nəzərə alaraq, vətəndaşlıq mövqeyinin göstəricisi olan təkliflər, müraciətlər ətraflı təhlil edilir, öyrənilir və məqsədəuyğun hesab edildikdə əməkdaşlarımızın tədris prosesinə yönəldilir.

# Boşanma: asan qazanc, yoxsa ailə faciəsi?



***Ailə institutu, ailə dəyərləri min illərdən üzübəri daima Azərbaycan xalqının müqəddəs, göz bəbəyi kimi qoruyubsaxladığı xəzinə olub. Bu xalqın mənəvi xəzinəsini, milli dəyərlərini də, əsasən, bu amil təşkil edir. Çünki dünyaya göz açıb ailədə böyüyən, daha sonra cəmiyyətə atılan hər bir azərbaycanlının mənəvi dəyərlər və həyat düşüncəsi ailəsində aldığı ilkin informasiya ilə formalaşır. Uşaq yaddaşı həmişə iti olur. 4-5 yaşındakı bütün önəmli hadisələr kino lenti kimi hər bir insanın "yaddaş seyfinə" yüklənir. Xüsusilə, ailədəki hər bir anı uşağın yaddaşına ömrünün sonuna qədər həkk olur.***

## Ailə dəyərləri: çıraqla axtarsan da, çətin ki, tapasan!

Çox zaman ailədə uşaqların yanında valideynlərin öz danışıq və vərdişlərinə xüsusi ehtiyatla yanaşmaları barədə xəbərdarlıq da, məhz uşaqların gələcək dünyagörüşünə görə baş verən narahatlıq-



Mətləb Salahov

la bağlıdır. Ata-ana arasındakı münasibətlər, ailədə tərbiyə və dünyagörüşü barədəki fikirlər uşaqların psixoloji durumunda və gələcək ictimai fərd kimi hansı istiqamətdə yetişməsində, yön almasında çox vacib rol oynayır. "Uşağın yanında hər sözü danışmaq olmaz" deyimi də, çox hallarda buna əsaslanır. Təəssüf ki, bu gün cəmiyyətdə ailə institutunun "Ferrari" sürətilə iflasa doğru yön aldığını görməmək mümkün deyil. Ən dəhşətli cinayət isə, həqiqətin inkar edilməsidir. Çünki bu yalan sabahkı faciələr üçün əsl bünövrədir. Təbii ki, qanan və anlayan üçün...

Son günlər statistika çox qorxunc bir vəziyyətdən xəbər verir. Xəbər verir yox, əsl faciəli vəziyyət barədə həyəcan siqnalı çalır. Boşanmalar kəlləçarxa çıxıb! Təsəvvür edin ki, artıq boşanma halları sıradan sosial bir prosesdir, hadisədir. Artıq heç kimi təəccüb-filan bürümür. Sanki artıq Azərbaycan cəmiyyəti üçün BOŞANMA sindromu başını aşağı salıb adiləşdirdiyi bir sosial adətə çevrilib. Bəs qabaqlar necə idi? Qızı boşanan kişi fikirdən çərləyib ölürdü, boşanan qızın qardaşı el-oba arasına çıxmağa çəkinirdi. Ailənin nüfuzu ciddi zədələnirdi, o ailə ilə qonum-qonşu artıq məsafə saxlayardı, əsl tənə hədəfi olurdu. Qabaqlar el-oba, camaat belə işlərə yol vermirdi, yığışıb həm oğlanın, həm də qızın başına ağıl qoyurdular, ağsaqqallar gəncləri danlayar, həyat dərsi keçərdilər. Aradakı problemləri başa salaraq, üsul-qayda ilə yoluna qoyardılar.

İndi nə ağsaqqal qalıb, nə qarasaqqal. İndi deyişi pis çıxmasın, heç kim böyük sözünə "filan şey də qoymur". İndi heç kim heç kimin "kitabını oxumur". Ara qarışıb, məzhəb itib. İndi sosial şəbəkələrdə bütün mənəvi dəyərlərimiz, küçədəki sahibsiz itlər kimi, yerlərdə sürünür. Cinsini dəyişən "kişilərdən" tutmuş, ailəsinə min dəfə xəyanət edərək, əxlaqsızlığı biznesə çevirən ləçər "xanımlar", olmayan tərbiyəsizliyə sahib olan gədə-güdə at oynadır cəmiyyətdə. Getdi işinin dalınca qabaqkı adət-ənənələr, el-oba abır-həyası. Daha yoxdur onlar!

## Sevgidən öncə EVİN OLSUN!

Qabaq qız gəlin köçəndə, ata-anası ona "Artıq getdiyin ocaq sənin əbədi evindir. Oradan ancaq cənazən çıxacaq" deyirdilər. Yəni artıq "ata evini unut, getdiyin ocağa bağlan, oğul-qız sahibi ol", ailənin dirəyi ol deyirdilər. Qabaq analar qızlarını ailə həyatına hazırlaşdırırdılar, onlara evdarlığı, ailəyə baxmağı öyrədirdilər. Getdiyi ocağa, ailə böyüklərinə dərin hörmət və bağlılığı öyrədərdilər. Ata evindən ayrılan qız da anlayırdı ki, gəlinin getdiyi ocaq onun axirətə qədər ocağıdır. İndi o cür anaları, ancaq nağıllarda olduğu kimi, çıraqla axtara bilərsən. İndi ölkəmizdə ailə institutu elə bir həddə çatıb ki, daha müqəddəs dəyərlər, ailə bağlılığı deyilən məfhumlar tarixə qovuşub, bu cür ifadələrə dodaq büzürlər indiki gənclər.

Deməli belə, indi ər arvadına "ayağını bir az kandara qoy", yaxud "kiri yerində otur. Ərin ər yeri, arvadın arvad yeri var" desə, qadın heç bir tərəddüd etmədən ayaqyalın qaçacaq məhkəməyə. Niyə? Çünki ayağını qatlayıb evdə oturmaqdan, ərə, uşaqlara qulluq etməkdən, ev işlərini görməkdən zəhləsi gedən əksər xanımlar elə bilir ki, gedəcəyi məhkəmədə hər şey onun üçün, onun xeyrinə həll



olunacaq. Açıq danışaq, indi "ailə qurma" deyəndə oğlanın maddi imkanları, əmlak vəziyyəti ilk öndə gələn məsələdir. Qız evi öncə ev tələb edir. Ona gör yox ki, həmin ev gənc ailənin yaşaması üçün lazımdır, yaxud valideynlər övladlarının kirayədə yaşamasından narahatdırlar. Ona görə ki, 3-5 gündən sonra məhkəməyə düşüb boşananda, 1 otaqlı evi, uşaq varsa, alimenti alıb qızlarına "GÜN AĞLASINLAR!". Qızlarının bu oğlanla bir ömür boyu can deyib - can eşitməsi, bir yastıqda qocalması, xoşbəxt olması getdi işinin dalınca. Gördün ki, bir balaca ər sözünə baxmır, ya da qayınana səndən qulluq tələb edir, ayaqyalın qaç məhkəməyə. Niyə? BOŞAN və QAZAN!

## Evli xanımlar sosial şəbəkələrdə nə gəzir?

Amma ər evində oturmaqdan bezib, sərbəst yaşamaq, "azad həyat sürmək" eşqinə düşən, ərinə xəyanət yolu tutan qadınlar da içki düşkünü olan kişilər kimi eyni statusda, hələ bir az da irəlidədirlər. Xüsusilə, son bir neçə il ərzində, sosial şəbəkələrdə əksər qadınların yersiz "fəallığı", ağına-bozuna baxmadan ailəli olduğunu kənara tullayıb, özünə sevgili axtarışına çıxması ailələrin kütləvi şəkildə dağılmasına yol açır. Evli xanım ailə məsuliyyətini, abır-həyasını ayaq altına atıb bu yolu tutursa, bu, bir cəmiyyət üçün əsl FACİƏDİR! Ərini, uşaqlarını düşünməyən, evdə biş-düş əvəzinə, sosial şəbəkələrdə "biş-düş edən" bu cür evli xanımlar, həm də öz sonlarını gətirirlər. Bir çoxları boşanmaları sosial problemlər, pulsuzluq və işsizliklə əlaqələndirirlər. Sözsüz ki, evə qazanc gəlməyəndə, qazana sevgi dolu sözlərdən ibarət ərzaq doldurmaq olmur. Mütləq qazanc lazımdır. Amma çətinlikləri bəhanə edib ailəni qorumaq əvəzinə, ələ verib çətinlikdən çıxmağı yox, boşanmağı seçmək çıxış yolu deyil. Bircə fakt bu dediklərimə gün kimi misaldır: İkinci Dünya müharibəsində insanlar yeməyə yox, qoxulayıb havasını da ciyərlərinə çəkməyə çörək tapmırdılar. Amma nə qədər əcaib görünsə də, o zaman, yəni İkinci Dünya müharibəsi zamanı boşanan ailə qeydə alınmadı! Bu da sənə fakt.

## Qanunun boşluğu: xəyanət et, ev və aliment qopar!

Təəssüf ki, ailə məcəlləsindəki bir sıra boşluqlar da boşanmalar üçün əsl "yemdir". Təsəvvür edin ki, məhkəmələrimizdə boşanma prosesi yazıq kişinin əsl faciə tamaşasına çevrilir. Bütün hallarda, günahkar, məhz KİŞİLƏR elan olunur. Mən, kişi-qadın ayrı- seçkiliyi aparmıram. Amma fakt odur ki, qadının zərif cins olmasına görə qanunvericilik tamamilə birtərəfli şəkildə qadının yanındadır. Boşanmanın səbəbini nəzərə almadan belə! Sözsüz ki, içki düşkünü, narkoman, ailəsinə baxmayan, həyat yoldaşına, övladlarına zülm edən ərləri yüz qatına cərimələmək lazımdır. Belələrinə heç bir güzəşt olmaz. Bu tiplər ailə dəyərləri üçün üz qarasıdır. O, başqa məsələ.

Təsəvvür edin ki, ailəsinə, ocağına xəyanət edən əxlaqsız yolun yolçusu ifşa olunur və özünə hörmət edən ər onu həyatından silməyə qərar verir. Çünki bunun başqa alternativ variantı da yoxdur. Namusunu ayaqlar altına atan qadınla bir yastığa baş qoymaq əsl Azərbaycan kişisinin görəcəyi iş deyil...

Həmin anda həmin bu pis yolun yolçusu olan qadın xəyanət etdiyi kişidən 1 otaqlı ev və aliment qoparıb sakitcə, "azad şəkildə" tam sərbəst həyatına davam edir. Əsl azadlıq! Bəs hanı ədalət, hanı qanunun aliliyi? Məhkəmədə niyə ailəsinə xəyanət yolu tutan birisinə cəza verilmir, niyə onun hüquqları məhdudlaşdırılmır? Belə çıxır ki, qadın xəyanət edəcək, ailəsini atacaq, amma namuslu əri ona 1 otaqlı ev və uşağa görə 18 il aliment ödəyəcək. Bu, necə ədalətdir ki? Demək belə getsə, cəmi bir neçə ildən sonra rəsmi nikaha girənlərin sayı da nadir statistika arxivinə çevriləcək. İndi əksər oğlanlar da ayılıblar ki, əksər qızlar ailə qurmaq, ev-eşik sahibi, övlad sahibi olub bir ömür bir yerdə xoşbəxt həyat sürmək üçün yox, 3-5 ay evli olub əmlak və aliment sahibi olmaq üçün "evlənirlər". Bu məsələ, gerçəkdən olduqca ciddi xəbərdarlıqdır. Bu, sözün əsl mənasında, milli dəyərlərimizin gələcəyi üçün tarixi həyəcan təbilidir.

## Boşanmanın qurbanı-günahsız uşaqlar!

Sonda gələk bu boşanmalardan əziyyət çəkən əsas hədəf olan balaca uşaqlara. Onlar ata və analarının arasında baş verənlərdən, ailə münaqişələrindən bixəbər olurlar. Yəni yaşı 10-a çatmayan uşaqlardan danışıram. Amma o uşaq yaddaşlarına elə bir zərbə vurulur ki, bir ömür o zərbənin təsirindən həyatları boyu əziyyət çəkirlər. Görəsən, valideyn adını doğum şəhadətnaməsində yazdıran insanlar, o ada layiq olmaq barədə heç həyatları boyu, ayda-ildə bir dəfə də olsun düşünürlərmi?

Məktəbə atasız gedən uşağın, həmyaşıdlarına olan ata qayğısını necə həsədlə, əsəbiliklə və hətta nifrətlə seyr edəcəyini heç düşündülərmi boşanmaya tələsənlər? Düşündülərmi ki, bu uşaq ata-ana sevgisindən məhrum olan, ailə sevgisi yaşamayan, bir fərd olaraq, əbədi şikəst kimi böyüyəcək? Düşünsələr məsuliyyətsiz addımlar atmaz, dünyaya gətirdikləri körpələrin atasız-anasız böyümələrinə yol açmazlar. Ailə məsuliyyəti deyilən məfhumdan xəbəri olmayan yüzlərlə ailə var cəmiyyətimizdə. Təəssüf ki, ailə qurmaqla bağlı maarifləndirmə hələ ki, mənasız və ətürpədən yalançı cümlələrdən uzağa getmir. Demək ki, sevgidən daha əvvəl quracağın ailənin məsuliyyətini anlamaq və onu qorumaq barədə düşünməlisən. Çünki sən hollandiyalı, belçikalı, norveçli və ya başqa birisi deyilsən. Sən ailə dəyərlərini min illərdir bu günlərə gətirib çıxaran azərbaycanlısan...

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)

**(Əvvəli ötən sayımızda)**

Salamla nitqini isti notlarla başlayan xanım Van Min söylədi ki, fərqli coğrafiyalarda yaşasalar da, Azərbaycan və Cin xalqları arasında bir oxşarlıq var - hər ikisi olduqca qonaqpərvər xalqdır. Hesab edin ki, öz evinizdə, dostlarınızın, doğmalarınızın yanındasınız.

Xanım Van Min 1999-cu ildə Bakıda olduğunu, YAP-ın birinci qurultayında iştirak etdiyini, Ümummilli Lider Heydər Əliyevlə görüşdüyünü şirin bir xatirə kimi bizimlə bölüşdü, Heydər Əliyevin xarizmatik lider kimi Çində də böyük hörmətə malik olduğunu, Çin-Azərbaycan arasındakı diplomatik, siyasi və iqtisadi əlaqələrin məhz Heydər Əliyev tərəfindən qurulduğunu xüsusi məmnuniyyət hissi ilə qeyd etdi.

O, müstəqil Azərbaycanın Çinə ilk rəsmi səfər edən dövlət başçısının məhz Heydər Əliyev olduğunu xatırlatdı və Ümummilli liderin 7-10 mart 1994-cü il tarixdə Çinə rəsmi səfərinin iki öklə arasında hərtərəfli əlaqələrin qurulmasında tarixi əhəmiyyətini xüsusi olaraq qeyd etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi ağıllı, müdrik və praqmatik lider adlandıran xanım Min cənab Prezidentin 2018-ci ilin aprelində Pekində



**Musa Urud, Millət vəkili, YAP Siyasi Şurasının üzvü.**

“Bir kəmər-bir yol” sammitində iştirakını, qədim ipək yolunun Azərbaycan üzərindən bərpasında dövlət başçımızın xüsusi xidmətləri olduğunu da minnətdarlıq hissi ilə xatırladı.

O daha sonra partiyalarımız arası münasibətlərdən danışarkən YAP-ın təkcə Cənubi Qafqazın deyil, postsovet ölkələrinin və Şərqin ən nüfuzlu partiyalarından biri olduğunu qeyd etdi.

Son illərdə əldə etdikləri uğurlardan qürur hissi ilə söz açan Van Min qeyd etdi ki, Çin iqtisadiyyatı sürətlə inkişaf edir. Əgər 30 il bundan əvvəl əhalinin 40%-i yoxsulluq həddində yaşayırdısa, indi yoxsulluq 5%-ə enib. Hər il 10 milyon insan yoxsulluq həddindən çıxır. Yaxın 2 ildə Çin yoxsulluğu 0%-ə çatdıracaqdır. Çin dünyanın ən inkişaf etmiş dövlətinə çevrilmək kimi kifayət qədər iddialı bir məqsədini də artıq heç kəsdən gizlətmir!

Cavab nitqində YAP nümayəndə heyətinin başçısı Hadi Rəcəbli səmimi qəbul üçün təşəkkürünü bildirərək Çin-Azərbaycan əlaqələrinin möhkəmlənməsində partiyalarımızın xüsusi rolunu qeyd etdi. Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf eydiyini, vətəndaş cəmiyyətinin formalaşmasında hər cür azadlıq və hüquqların mövcud olmasından danışdı. Hadi müəllim Azərbaycanda 55 siyasi partiyanın qeydiyyatdan keçdiyini, onlardan 12-nin parlamentdə təmsil olunduğunu söyləyəndə təkpartiyalı kommunist sisteminin yetirməsi olan xanım Van Minin badamı gözləri alma boyda oldu və mənə elə gəldi ki, söhbətin axırınadək əvvəlki ölçüsünə qayıtmadı.

Səmimi keçən görüşün sonunda qarşılıqlı hədiyyələr təqdim olundu. Bu zaman yüngülvari bir kuryoz hadisə də baş verdi. Belə ki, Van Minə kiçik bir xalça suvenirlə yanaşı, bir butulka “Savalan” şərabı da təqdim edərkən səfir astaca söylədi ki, Çində qadına şərab butulkası hədiyyə etmək doğru sayılmır, hətta təhqir kimi də qəbul edilə bilər. Amma artıq gec idi. Hadi müəllim Azərbaycan şərablarını tərifləyə-tərifləyə butulka olan qutunu xanım Van Minə uzatmışdı. Səfirin qeydini eşidən kimi Hadi müəllimin özünəməxsus siyasi çevikliyi burada da özünü göstərdi:

-Burada səfir söyləyir ki, Çində qadınlara şərab hədiyyə etməzlər. Amma mən köhnə bir kommunist kimi hesab edirəm ki, kommunistlər hamısı bir-birinə yoldaşdır. Bir də bizdə bir atalar sözü var: - Aslanın erkəyi, dişisi olmaz! Qarşılıqlı gülüşdən sonra hədiyyə şərabı götürən kommunist xanım sakitcə söhbətə nöqtə qoydu: - Mən bu şərabı aparıb evdə içəcəyəm!




Otelə dönəndə Çinin məşhur Sin-Xua agentliyinin müxbirlərinin bizi gözlədiklərini gördük. Müsahibə istəyirdilər. Nümayəndə heyətimizin başçısı Hadi müəllim və jurnalist dostumuz, “SİA” agentliyinin rəhbəri Bəhruz Quliyev səfərimizin məqsədi və Çin haqqında təəssuratlarını söylədilər. Yeri gəlmişkən, Bəhruz müəllimə qrupumuz adından bir daha minnətdarlığımı bildirirəm Məhz onun peşəkarlığı və operativliyi sayəsində Çin səfərimiz həm Azərbaycanın, həm də Çinin mətbuatında layiqincə işıqlandırıldı.

Çinə səfərimizin 2-ci günü çox gərgin və maraqlı keçdi. Belə ki, səhər yeməyindən sonra nümayəndə heyəti Çin KP MK nəzdində Ali Partiya məktəbini ziyarət etdik. Məktəb adlanan bu universitet, əslində böyük bir şəhərcik idi. Ərazisi 50 hektardan çox olan Ali Partiya məktəbi onlarla binadan ibarətdir. Hər korpusda bir neçə fənn tədris olunur. Universitetdə 400 professor çalışır. Ümumi müəllim heyətinin sayı isə 1300 nəfərdən çoxdur. Bu ali partiya məktəbi 1933-cü ildə təsis edilib. Dünyanın 91 ölkəsinin 265 universiteti ilə əməkdaşlıq edir, 21 beynəlxalq təşkilatla müqaviləsi vardır. 2018-ci ildə dünyanın 159 ölkəsindən 9587 öyrənci burada seminar, fakültativ keçib, sertifikat almışdır. Universitetin eyni zamanda 2000 xarici tələbənin mühazirə dinlədiyi 66 zalı vardır. Universitetin Çinin müxtəlif bölgələrində 3000-ə yaxın filialı fəaliyyət göstərir. Bütün bu məlumatları bizimlə həvəslə bölüşən universitetin Beynəlxalq əlaqələr şöbəsinin direktoru xanım Dun Tsin bizi mehribanlıqla salamladı, Azərbaycan haqqında xoş sözlər söylədi. Bir saatlıq səmimi fikir mübadiləsindən sonra xanım Dun Tsin və onun əməkdaşları ilə xudahafisləşib Çin imperatorlarının tarixi iqamətgahı olan Ququn sarayına yola düşdük.

Burada qeyd etməyi lazım bilirəm ki, Ququn imperator sarayı 3000 illik yazı və dövlətçilik tarixi olan Çinin qürur mənbəyidir və bütün rəsmi qonaqları protokol qaydasında da buranı ziyarət etməyə gətirirlər. On beşinci əsrə məxsus bu saray kompleksi dünyanın ən boyük saray kompleksi hesab olunur. Min imperatorlar sülaləsinin inşa etdirdiyi Ququn sarayının ərazisində 980 bina vardır, tikililərin ümumi sahəsi 720 min kv. metrdir.

Sarayın əzəmətini və möhtəşəmliyini təsvir etmək fikrində deyiləm - gərək gəlib gözlərinlə görəsən. Yalnız onu qeyd etmək istəyirəm ki, saraya bilet satışı yalnız onlayn qaydada həyata keçirilir. Bir biletin qiyməti 12 ABŞ dollarıdır. Gündə 100.000 adam buranı ziyarət edir. Əgər daha çox bilet satışına icazə verilsə, gündə ziyarətçilərin sayı 200.000-i keçər. Lakin günortadan sonra saraya giriş dayandırılır və təmizlik işləri görülür. Yəni təkcə Ququn sarayı Çinin büdcəsinə ildə 420 aşqa sarayın ətrafında satılan suvenirlər də yaxşı gəlir mənbəyidir.

Oteldə yüngülvari nahar yeməyi yeyəndən sonra ÇXR KP MK Beynəlxalq əlaqələr şöbəsində düzənlənən konfransa yola düşdük. Konfrans ÇKP-YAP münasibətlərinin 20 illiyinə həsr olunsa da, daha çox idarəetmədə partiyaların rəhbər rolu, xalq-partiya əməkdaşlığı, xalqa xidmət, sosial rifah məsələləri müzakirə ediləcəkdi.

Konfransın gündəliyi öncədən Bakıya göndərilmişdi və Azərbaycan tərəfdən Hadi Rəcəblinin 15 dəqiqəlik məruzəsi, Musa Quliyevin, Sahibə Qafarova və Tahir Mirkişilinin 8 dəqiqəlik çıxışları nəzərdə tutulmuşdu. ÇXR KP MK Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun konfransda iştirakı və 15 dəqiqə məruzə etməsi tədbirin yüksək səviyyəli olmasından xəbər verirdi. Konfransı Beynəlxalq şöbənin müdir müavini, professor Çzyu Liuçzyun açdı və idarə etdi.

Salamlama və məruzə üçün ilk olaraq söz ÇXR KP MK Beynəlxalq əlaqələr departamentinin rəhbəri Sun Taoya verildi. Sun Tao Çində kifayət qədər nüfuzlu partiya xadimidir. Bu şəxsi Azərbaycanda da yaxşı tanıyırlar. Bizim səfərimizdən bir qədər əvvəl, 2019-cu ilin iyul ayında Yeni Azərbaycan Partiyasının dəvəti ilə Sun Tao Bakıda olmuş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşmüşdür. Geniş tərkibli nümayəndə heyəti ilə Bakıya gələn Sun Tao 22 iyul tarixdə YAP-ın təşkilatçılığı ilə düzənlənən “Si Cinpinin yeni dövrü - Çin səciyyəvi sosializm ideyası” mövzusunda keçirilən konfransda geniş məruzə ilə çıxış etmişdi.

Məruzəsində Çinin sürətli inkişaf yolundan, idarəetmə intizamından, kadrların düzgün seçilib yerləşdirilməsinin əhəmiyyətindən danışan Sun Tao Çin Xalq Respublikasının lideri cənab Si Cinpinin “Çin arzusu” ideyasının inamla gerçəkləşdiyini xüsusi olaraq diqqətimizə çatdırdı. Sun Tao məruzəsində Azərbaycan haqqında səmimi sözlər söylədi. Bakıya səfəri, cənab Ptezident İlham Əliyevin qəbulunda olması, YAP Sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovla işgüzar və səmimi görüşləri barədə xoş xatirələrini konfrans iştirakçıları ilə bölüşdü.

Sun Taonun məruzəsindən sonra Hadı müəllim Azərbaycanın inkişaf yolu, siyasi-iqtisadi uğurları, YAP iqtidarı və xalqın liderə sevgisi barədə ətraflı məlumat verdi. Çini yaxın qonşu, etibarlı tərəfdaş kimi xarakterizə edərək bütün beynəlxalq platformalarda, xüsusi ilə Qarabağ problemi ilə bağlı müzakirələr zamanı həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini minnətdarlıq hissi ilə qeyd etdi. Azərbaycanda Çinlə dostluq və əməkdaşlıq əlaqələrinə ciddi önəm verildiyini söyləyən Hadi müəllim məruzəsini nikbin bir tonda tamamladı: Güclü bir əl çiynimizdə olanda biz özümüzü daha da inamlı hiss edirik!

Məruzələr ətrafında Çin tərəfdən ÇKP MK-nın Ali Partiya Məktəbinin direktor müavini Çzyu Linçzyun, Çjenczyan əyalətinin İu şəhərinin vitse-meri Li Tzyunfu, ÇKP partiya intizamına nəzarət şöbəsinin direktor müavini, Azərbaycan tərəfdən isə Milli Məclisin deputatları Musa Quliyev, Sahibə Qafarova və Tahit Mirkişili çıxış etdilər. Bizim çıxışlar da maraqla dinlənildi və alqışlarla qarşılandı. Konfransdan sonra nümayəndə heyətimiz Sin-Xua agentliyi və bir neçə te-

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)

leviziya kanalının müxbirləri ilə səfərimiz barədə, o cümlədən Dağlıq Qarabağ problemi, Ermənistanın işğalçılıq siyasəti, BMT qərarlarının 25 ildir ki, kağız üzərində qalması barədə geniş brifinq keçirdi.

Konfransdan sonra Sun Tao Azərbaycan nümayəndə heyətinin şərəfinə ziyafət verdi. Ziyafətin ən maraqlı səhnəsi çay dəmləmə mərasimi idi. Milli geyimdə iki gözəl qız müxtəlif çay növlərini milli kasalarda dəmləyir, birinci dəmi kənara axıdıb, təzədən dəmləyir, 3-5 dəqiqədən sonra Sun Taoya, Hadi müəllimə və digər qonaqlara təqdim edirdilər. Çaylar həqiqətən də çox ləzzətli idi və bizim çaylara qətiyyən bənzəmirdi. Çinlilər daha çox yaşıl çaya üstünlük verirlər və çay içərkən, adətən, heç bir şirinləşdiricidən istifadə etmirlər. Görüşlər zamanı isə yaşıl çayı xüsusi saxsı çay qablarında dəmləyib gətirirlər. Arabir çayçı qızlar əllərində çaydan gəzərək xüsusi mərasim qaydasında özlərinə məxsus plastika ilə, gəzəri kölgə kimi, içilən çay bardaqlarının üzərinə qaynar su əlavə edib sakitcə çəkilib gedirdilər.



Banket çox yüksək səviyyədə təşkil olunmuşdu. Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı və səfirliyin əməkdaşı Samir Məmmədov da banketdə iştirak edirdilər. Yeri gəlmişkən onu da qeyd edim ki, Samir Məmmədov ali bakalavr və magistr təhsilini Çində alıb. Magistraturanı bitirdikdən sonra isə səfirliyimizdə diplomatik fəaliyyətə başlayıb. Yetkin bir diplomat olan Samir Çin dilində gözəl danışır. Bütün səfər boyu Samir bizi müşayiət etdi. Konfranslardakı çıxışlarımızı, eləcə də görüşlərimizi tərcümə edərək bizə çox yardımçı oldu.



Ziyafətə rəng qatan isə Azərbaycan səfirliyində hazırlanıb gələn şah plovu və bizim apardığımız “Savalan” və “Yeddi gözəl” şərabları oldu. Ümumiyyətlə Çində bizim şərabları yavaş-yavaş tanımağa başlayırlar və çox bəyənirlər. Təəssüf olsun ki, bu həddən artıq böyük və çox seqmentli bazarda hələ də yerimizi tuta bilməmişik.

**Səfirin dedikləri**

Ölkəmizin Çindəki səfiri Əkrəm Zeynallı gənc olmasına baxmayaraq kifayət qədər təcrübəli diplomatdır. Savadlı, mədəni, dünyagörüşü geniş, işgüzar adamdır. Bizim səfərimizin olduqca yüksək səviyyədə təşkil edilməsində, heç şübhəsiz ki, Çin kommunistləri ilə yanaşı səfirliyimizin də böyük zəhməti olmuşdur. Səfirin tapşırığı ilə səfirliyin katibi Samir Məmmədov əvvəldən axıra bizim yanımızda oldu, istər rəsmi görüşlərdə, istər mədəni proqramlarda nümayəndə heyətimizə hər cür yardım göstərdi.

Əkrəm Zeynallı öz səfir etimadnaməsini 13 sentyabr 2017-ci ildə ÇXR sədri cənab Si Cipinə təqdim etmiş və o tarixdən də iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsi üçün çalışır.

Əkrəm müəllim söyləyir ki, Çin-Azərbaycan münasibətlərinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, cənab Prezident İlham Əliyevin səyləri ilə inkişaf etməkdədir. Eyni zamanda diplomatik və siyasi münasibətlərin möhkəm və davamlı olması üçün iqtisadi, ticarət əlaqələri də inkişaf etməlidir. Təəssüf ki, Çin boyda nəhəng bazara layiqincə daxil ola bilməmişik.

Lakin son illərdə “Bir kəmər, bir yol” təşəbbüsünün reallaşmağa başlaması, cənab Prezident İlham Əliyevin 25-27 aprel 2019-cu il tarixdə “Bir kəmər, bir yol” dövlət başçılarının Pekində keçirilən Sammitində iştirak etmiş, bu əlaqələrin güclənməsinə xeyli stimul verməşdir.



Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yol layihəsi və Bakı-Ələt Beynəlxalq Dəniz limanının tikilməsi Çini Avropaya birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat dəhlizini formalaşdırmışdır. Çin-Azərbaycan arasında dəmir yolu daşımalarının həcmi get-gedə artır, əlaqələr möhkəmlənir. Bu işlərlə bağlı İqtisadiyyat naziri Şahin Mustafayev və “Azərbaycan Dəmir Yolları” QSC-nın sədri Cavid Qurbanov bir neçə dəfə ŞXR-da işgüzar görüşlərdə olublar.

Səfir işgüzar əlaqələrin möhkəmlənməsində 3 vacib istiqaməti qeyd etdi:

- Azərbaycanın kənd təsərrüfatı məhsullarının, xüsusilə şərab, xurma və nar kimi böyük tələbat olan malların Çin bazarına daxil olması üçün tədbirlər görmək;

- Turizm əlaqələrinin möhkəmlənməsi: gördüyümüz tədbirlər öz nəticələrini verməkdədir. Səfirliyimizin səyləri nəticəsində Çindən Azərbaycana gedən turistlərin sayı 8 mindən 50 min nəfərə çatmışdır. Gələn ildən başlayaraq ildə Çindən Azərbaycana gələn turistlərin sayının 200 min nəfərə çatdırılması üçün Çinin Turizm nazirliyi ilə müqavilə bağlamağa hazırlaşırıq..

- Çin şəhərləri ilə Azərbaycan şəhərlərinin qardaşlaşması, təyyarə reyslərinin sayının artması da aktual məsələlərdəndir. Halhazırda Sumqayıt şəhəri ÇXR-nın Çucou şəhəri ilə qardaşlaşmışdır. Bakı-Pekin qardaşlaşmış şəhər layihəsi üzrə danışıqlar aparılır. Çinin İpək Yolu Beynəlxalq Palatasının təşəbbüsü ilə yaradılmış “İpək yolu şəhərləri Alyansı”na Bakı şəhərinin Qaradağ rayonu, Şəki və Şuşa şəhərlərinin qoşulması təşəbbüsləri də reallaşmaq üzrədir. Çində Naftalan neftinin müalicəvi təsiri barədə məlumat var və Naftalana getmək arzusunda olanların sayı da artmaqdadır. Bu perspektivi nəzərə alaraq Gəncə şəhərinin Çinin bir şəhəri ilə qardaşlaşması fikri də aktualdır. Millət vəkili Naqif Həmzəyev və mən Gəncədən olan deputatlar kimi bu məsələyə hər cür dəstək göstərəcəyimizi bildirdik.

**Səfərin üçüncü günü**

Səhər yeməyindən sonra qaldığımız otelin 2-ci mərtəbəsindəki konfrans zalında “Bir kəmər, bir yol” iqtisadi inkişaf strategiyası ətrafında müzakirə və təqdimat oldu. Mövzunu “Torpaqların istifadəsi institutunun” direktoru, doktor Çong Piping xanım təqdim etdi. Bu çox gənc və arıq xanımı ayrı yerdə görsəydim bir tələbə olduğunu zənn edərdim. Amma elmlər doktoru və institut direktoru olan bu xanım məruzəsinə “varlı olmaq üçün əvvəl yol çəkməlisən” sözləri ilə başlayanda dərin bilikli və peşəkar olduğunu sezməmək mümkün deyildi. Xanım Piping sonra əlavə etdi ki, “Bir kəmər, bir yol” layihəsi Çinin qürur mənbəyidir. Əvvəllər deyirdilər ki, əgər Çinə gəlib Çin səddini görməmisənsə və ördək əti yeməmisənsə, - deməli Çində olmamısan, - deyiminə indi “Bir kəmər, bir yol” layihəsi barədə məlumatın yoxdursa fikri də əlavə olunub.

Məruzə-təqdimatdan aydın oldu ki, bu layihə Çin üçün, bu nəhəng ölkənin gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Çin dövləti bu layihənin reallaşması məqsədi ilə dünyanın 125 ölkəsi ilə əməkdaşlıq müqavilələsi imzalayıb, bu yolların çəkilməsi üçün 186 milyard dollar investisiya yatırılması planlaşdırılır, bu Azərbaycan kimi bir ölkənin 10 illik büdcəsi deməkdir.

Çong Piping bu layihədə Azərbaycanı etibarlı tərəfdaş kimi gördüklərini vurğuladı və cənab Prezident İlham Əliyevin bu ilin aprelində keçirilən “Bir kəmər, bir yol” Sammitində iştirakının Çin tərəfdən yüksək qiymətləndirildiyini qeyd etdi.

*(Ardı növbəti sayımızda)*

# Mədəniyyətimizə dövlət tərəfindən göstərilən qayğı davamlıdır

*Dövlət başçısının sərəncamları ilə musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə sənətkarlar fəxri adlara və mükafatlara layiq görülüblər*

***Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət-mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə dayanır. Cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da, onun demokratikləşməsinə, dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən mədəniyyət ocaqları köklü şəkildə modernləşdirilib və yenidən qurulub. Müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri ayrı-ayrılıqda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır.***



Ulu Öndər Heydər Əliyev ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə sənət məbədləri təmir və bərpa etdirilib, onların dünya səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb. Belə ki, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Dövlət Rus Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, Dövlət Akademik Milli Dram Teatrı binaları və s. yüksək səviyyədə təmir-bərpa edilib. Prezidentin Sərəncamı əsasında sənət xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir və həyat şəraitləri yüksəldilir.



Mədəniyyət sahəsində çalışan insanlara bu qayğı dünya ölkələrində təsadüf olunmur. Azərbaycan milli mədəniyyəti müasir həyatımızda, bu diqqət və qayğının nəticəsi olaraq, özünün yeni bir dövrünü yaşayır. Dövlət başçısının bu sahəyə olan diqqət və qayğısı sənət xadimlərində yaradıcılıq əhval-ruhiyyəsini daha da artırmışdır. Təbii ki, bu yaradıcı şəxslərin fəaliyyətinin üzə çıxarılması üçün yaradılan şərtlə sıx bağlıdır. Dövlət tərəfindən bu sahənin mütəxəssislərinin maddi-sosial rifahlarının yaxşılaşdırılması istiqamətində görülən hər bir iş daxildə olan potensialın üzə çıxmasına təkan verən amillərdir. Yaradıcı simalar, mədəniyyət və incəsənimizin görkəmli nümayəndələrinə fəxri ad və mükafatlar verilib və mənzillərlə təmini olunublar.



Azərbaycan milli mədəniyyəti müasir həyatımızda bu diqqət və qayğının nəticəsi olaraq, özünün yeni bir dövrünü yaşayır. Bildiyimiz kimi, dövlətimizin başçısının bu sahəyə olan diqqət və qayğısı Azərbaycan teatrında yaradıcılıq əhval-ruhiyyəsini daha da artırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 17-də mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncamlar imzalayıb. Sənədlərə əsasən, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə, Vasif Allahverdiyev və Sərdar Fərəcova xalq artisti, Fəttah Xalıqzadə və Oqtay Rəcəbova əməkdar incəsənət xadimi, İqor Butenko və Nikolay Pyatkinə əməkdar artist, Səidə Göyçayskaya, Rüxsarə Hüseynova və Nazilə Yaqubovaya əməkdar müəllim fəxri adları verilib, beş nəfər isə "Tərəqqi" medalı ilə təltif olunub. Eyni zamanda, Mobil Babayev və Ruhəngiz Qasımova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Ölkə başçısının imzaladığı digər Sərəncamla Ağa Dadaş Dadaşov və İmruz Əfəndiyeva musiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Bu, ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamış Azərbaycan musiqi sənətinə dövlətimiz tərəfindən daha bir diqqətdir.

***Zümrüd BAYRAMOVA***

## Naxçıvanda mineral su bulaqları qeydiyyata alınıb



Muxtar respublikanın Ordubad, Culfa, Babək və Şahbuz rayonları ərazisindəki mineral su bulaqları Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qeydiyyata alınıb. Bununla yanaşı, onların koordinatları müəyyən edilib və tədqiq olunmaq üçün bulaqlardan su nümunələri götürülüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 9 yoxlama keçirilib. Naxçıvan şəhəri, Culfa, Ordubad, Babək və Şahbuz rayonlarının 20-dən çox yaşayış məntəqəsində ekoloji monitorinqlər aparılıb. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması kimi fəaliyyət sahələri ekoloji cəhətdən qiymətləndirilib, mövcud nöqsanların aradan qaldırılması nəzarətdə saxlanılıb.

Avqust ayında meşələrin yanğından mühafizəsi üçün profilaktik tədbirlər davam etdirilib. Toxum tədarükü məqsədilə 2000 kiloqramdan çox ərik, alma, alça, gilənar, tut toxumu yığılıb və aqrotexniki qaydada anbarlaşdırılıb. Meyvəçiliyin inkişafı ilə əlaqədar olaraq yeni meyvə sortlarının gətirilməsi və mədəni bağçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər çərçivəsində püstə bağında calaq edilmiş ağaclara aqrotexniki qulluq göstərilib. Yaylaq mövsümünün başa çatması ilə əlaqədar yay otlaq sahələrindən istifadə edən oba sakinləri və təsərrüfat sahibləri ilə maarifləndirici görüşlər keçirilib.

## Latviyanın Valka şəhərinin nümayəndə heyəti Azərbaycana səfər edəcək



Latviyanin Valka şəhərinin bələdiyyə sədri Vents Armand Krauklisin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 6-dan 10-dək Azərbaycanda səfərdə olacaq. AZƏRTAC xəbər verir ki, Azərbaycan şəhər, qəsəbə, kənd bələdiyyələrinin Milli Assosiasiyalarının dəvəti ilə reallaşdırılacaq səfərin məqsədi gələcək əməkdaşlıq məsələlərinin müzakirəsi və təcrübə mübadiləsidir. Səfər çərçivəsində qonaqlar Bakı və Goranboy rayonlarında görüşlər keçirəcəklər.

## Türkiyədə erməni terror təşkilatının qətlə yetirdiyi diplomatın xatirəsi anılır



Dünən Türkiyə ictimaiyyəti 1981-ci ildə erməni ASALA təşkilatı tərəfindən vəhşicəsinə qətlə yetirilmiş diplomatlardan birinin - Camal Özənin xatirəsini anır. Anadolu agentliyi xəbər verir ki, bu anım günü ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinin Twitter səhifəsində yerləşdirilmiş bəyanatda deyilir: "Biz təhlükəsizlik məsələləri üzrə attaşe, şəhid Camal Özənin xatirəsini ehtiramla anırıq. O, 1981-ci il sentyabrın 24-də Parisdə ASALA terror təşkilatı tərəfindən qətlə yetirilmişdir".

Qeyd olunur ki, 1975-ci ildə yaradılmış ASALA erməni terror təşkilatı yüzlərlə insanın qətlə yetirildiyi qanlı terror aktları törədib. Belə ki, 1975-ci ildən 1984-cü ilədək erməni terrorçularının əsas hədəfi Türkiyənin dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən səfirləri və diplomatları olub. ASALA-nın həmin dövrdə törətdiyi terror aktlarında 30 türk diplomatı və rəsmi şəxs öldürülüb. Ermənilərin terror aktlarının daha da intensiv olduğu 1980-1983-cü illərdə 700 terror aktı törədilib və 1986-cı ildə onlara son qoyulub.

## Hanan Xalifa: IAEA 2019 dünyada təhsilin qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir



Bakıda özümü evimdəki kimi hiss edirəm. Şəhərinizdəki müsbət dəyişikliklər məni heyran edir. İkinci dəfədir ki, IAEA-nın ölkənizdə keçirilən konfransına qatılıram. Konfrans çox yüksək səviyyədə təşkil edilib. Bu tədbir nəinki Azərbaycanda, hətta dünyada təhsilin qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Bu sözləri IAEA 2019 konfransının əsas məruzəçilərindən biri, Kembric Universitetinin İngilis dili üzrə biliyin qiymətləndirilməsi kafedrasının tədqiqat və beynəlxalq inkişaf bölməsinin rəhbəri xanım Hanan Xalifa AZƏRTAC-a müsahibəsində deyib.

"Sessiyadakı çıxışım "Qiymətləndirmə islahat təşəbbüsü kimi" mövzusuna həsr olunub. Təhsil ekspertləri da öz "uğur hekayələri"ni bölüşməklə iştirakçılara onlardan faydalanmaq imkanı yaradırlar. Qiymətləndirmə xüsusilə təhsil sahəsində islahat təşəbbüslərinin həyata keçirilməsində qarşıya çıxan çağırışların və təhsil sistemlərinin mürəkkəb xarakteri nəzərə alınaraq araşdırılmağa layiq fenomen olaraq qalır. Qərarvermə və fəaliyyət planlaşdırması üçün konkret faktlar təqdim edərək islahat təşəbbüsünün əvvəlində qiymətləndirmənin rolundan bəhs etmişəm. Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi bu tədbirdə aparılan təcrübə mübadiləsi müxtəlif ölkələrdə istifadə olunan qiymətləndirmə sistemləri arasında oxşarlıqları öyrənməyə və onlardan faydalanmağa imkan verir", - deyə H.Xalifa bildirib.

# Ölkəmizin inkişaf strategiyasının mahiyyətində davamlı iqtisadi artım və yüksək sosial rifah dayanır

## *YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmovun yap.org.az-a müsahibəsi*

***- Hüseynbala müəllim, bu gün ölkəmiz bütün sahələr üzrə uğurla inkişaf etməkdədir. Əldə olunan nəticələri necə qiymətləndirirsiniz?***

- Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişafını uğurla davam etdirir. Dövlətimizin iqtisadi siyasətinin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün məsələlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, ölkə başçısının Fərman və sərəncamlarının icrası Azərbaycanda gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Cənab Prezident İlham Əliyevin hərtərəfli inkişaf strategiyasının mahiyyətində mövcud imkan və resurslara söykənərək Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifaha nail olmaq dayanır. Bununla yanaşı dövlət başçısının müəyyənləşdirdiyi bu kompleks inkişaf xətti səmərəli dövlət idarəetməsini, qanunun aliliyini, insanların hüquq və azadlıqlarının tam təminatını və vətəndaşların respublikamızın ictimai həyatında fəal statusunu da özündə ehtiva edir. Cənab Prezidentin 16 illik fəaliyyəti nəticəsində Azərbaycan hazırda iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətədavamlı ölkəyə çevrilib. Bu gün Azərbaycanın ən ucqar bölgələrində də vətəndaşlarımızın rahat gündəlik həyatı üçün zəruri olan rabitə, internet, bank və kommunal xidmətlər, yollar və digər kommunikasiyalar, səviyyəli səhiyyə və təhsil xidmətləri təmin edilib.

Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas xəttini təşkil edir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev imzaladığı Fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin edib, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Bütün bunlar ölkəmizin inkişafı prosesində yüksək nəticələr verməkdədir.



***- Cari ildə əhalinin sosial rifah halının daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu barədə nə deyə bilərsiniz?***

- Əlbəttə ki, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı verdiyi qərarlar inqilabi xarakter daşıyır. Bu qərarlar 2018-ci ildən etibarən xüsusilə intensivləşib. Bu istiqamətdə atılan addımlar müqayisəyəgəlməzdir. Bilirsiniz ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezidentimiz cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib.

Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib.

Bütün bunlarla yanaşı bu il ərzində minimum pensiyanın, minimum əməkhaqqının əhəmiyyətli dərəcədə artırılması da vacib məqamlardan biridir. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı nəticəsində aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

Dövlət başçısının atdığı addımlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşının yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, verilən hər bir qərar Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib.

***- Bu gün Azərbaycan dünyada neft-qaz ölkəsi kimi də tanınır. Ümumiyyətlə, ölkəmizin həyata keçirdiyi enerji siyasətinin əhəmiyyəti nədən ibarətdir?***

- Bu gün Azərbaycan Respublikası özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir.

Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir.

Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Digər tərəfdən, Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə - diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir.

Bütövlükdə, Azərbaycanla enerji sahəsində tərəfdaşlıq əhəmiyyətli strateji dividendlər vəd edir və çoxşaxəli tərəfdaşlıq nöqteyi-nəzərindən yüksək qiymətləndirilir. Çünki, Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi əhəmiyyət verən aparıcı dövlətlər üçün mühüm önəm daşıyır. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi və iqtisadi, həmçinin enerji təhlükəsizliyinin təmin olunmasında birbaşa rol oynayır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Beləliklə, dünya dövlətləri Azərbaycanın siyasi əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda enerji təhlükəsizliyi sahəsində əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu qəbul edir.

***- Ölkəmizin uğurlu inkişafı fonunda bəzi dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Bu prosesdə xaricdəki mühacirlər daha çox "fəallıq" göstərir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanın çoxşaxəli inkişafı qaçıb xaricdə mühacir adının kölgəsində gizlənib dövlətimizə qarşı çirkin kampaniyalar aparan qaragüruhu dərindən narahat edir. Həmin bu qaragüruh mühacirlər merkantil maraqları ucbatından anti-Azərbaycan dairəyə daxil olan müxtəlif xarici kəşfiyyat orqanlarının, ermənipərəst qüvvələrin və digər bədniyyət çevrələrin əlində alətə çevrilirlər. Zaman-zaman Azərbaycana qarşı təsir rıçaqları kimi istifadə edilən mühacirlərin sırf qrant üçün öz dövlətinə və dövlətçilik ənənələrinə ziyan vurmaq cəhdləri uğursuzluqla nəticələnib və bundan sonra da onların çirkin niyyətləri reallaşmayacaq. Ona görə ki, Azərbaycan yuxarıda sadaladığımız kimi bu gün öz ayaqları üzərində müstəqil siyasət yürüdən qüdrətli dövlətdir, ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur, xalqımız seçdiyi və sevdiyi Prezidentinin ətrafında yumruq kimi birləşib. Cənab Prezidentin həyata keçirdiyi siyasi xətt cəmiyyət tərəfindən birmənalı şəkildə dəstəklənir.

Xalqımız həmişə zamanın sınaqlarından üzüağ çıxıb və bundan sonra da anti-Azərbaycan mövqe sərgiləyən bir ovuc qara qüvvənin dövlətimizə qarşı apardığı mənfur planları puça çıxaracaq. Xaricdən idarə olunan bu cür qüvvələrin müdaxilələri heç vaxt hədəfinə çatmayacaq.

Ətrafına yüzminlərlə vətəndaşımızı toplayan Yeni Azərbaycan Partiyası həmişə belə həssas məqamlarda lokomotiv qüvvə olduğunu nümayiş etdirərək cəmiyyəti dövlətimizə qarşı qarayaxma kampaniyası aparanlara qarşı mübarizədə həmrəyliyə çağırır. Çünki YAP-ın Azərbaycanın milli dövlətçilik tarixində, cəmiyyət həyatında kəsb etdiyi mahiyyət bir partiyanın nəzəri təqdimatından çox-çox üstündür. Partiyamızın fəaliyyətinin ilk günlərindən dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəsin bu partiyada öz yerini görməsi, onun sıralarında, təəssübkeşliyində, Heydər Əliyev ideyaları ətrafında sıx birləşməsi də bir daha sübut edir ki, ölkəmizdəki siyasi proseslərə xarici müdaxilə cəhdləri heç vaxt münbit şərait tapmayacaq və hər zamankı kimi fiaskoya uğrayacaq. Güclü dövlətimiz və xalqımız heç vaxt xarici müdaxilələrə imkan verməyəcək.

# Paşinyanı ətrafı, hətta inqilab yoldaşı da tərk edir

***Ermənistanın Polis İdarəsinin rəisi Valeriy Osipyan Təhlükəsizlik Şurasının iclasından sonra istefa verib. Ermənistan mediasında yayılan məlumatlara görə, görüş polis rəisinin etiraz etdiyi Amulsar mədəninə aparan yolun güclə açılmasına həsr olunmuşdu. Məlumatlarda, həmçinin, qeyd olunur ki, baş nazir polis idarəsinin rəisindən bu görüşdəki etirazına görə qəzəblənib və bundan sonra Osipyan istefa verib.***



Söz yox ki, bu, yeganə səbəb deyil. Nikol Paşinyan dəfələrlə hüquq-mühafizə orqanlarından şikayət etdiyi də gizli deyil. Öz növbəsində, hakimiyyətin müxtəlif qolları da hüquq-mühafizə orqanlarının əməkdaşlarına və xüsusən də, polisə qarşı narazılığını, mütəmadi olaraq, bildirib.

## Ermənistan hakimiyyəti öz müqəddəratını güclə qorumağa çalışır

"Mənim addımım" partiyasının deputatları bu yaxınlarda parlamentdə polisin hərəkətləri məsələsini qaldırıblar. Xüsusilə, Arusyak Zulxakyan, polisin demokratiyanı siqnal olaraq, qəbul etdiyini və əksər hallarda pozuntulara müdaxilə etmədiyini söyləyib. Söhbət müxalifətin hərəkətlərindən gedir. Yəni "Mənim addımım" polisi həddən artıq tolerantlıqda ittiham edir, müdaxilə etməməkdə və güc tətbiq etməməkdə günahlandırır. Belə çıxır ki, hakim partiya, ümumilikdə, Ermənistan hakimiyyəti ölkə polisindən güc tətbiq etməsini tələb edir. Bir sözlə, Ermənistan hakimiyyəti öz müqəddəratını güclə qorumağa çalışır.

Digər tərəfdən, Vanesyan və Osipyanın istefası, özü də bir- birinin ardınca istefası, təsdiq edir ki, Ermənistan hakimiyyəti özünü qorumaq, öz hakimiyyətini mühafizə etmək üçün yalnız güc strukturlarından dəstək gözləyir. Bu faktlar təsdiq edir ki, mövcud Ermənistan hakimiyyətinin, başda Paşinyan olmaqla, artıq ictimaiyyətə və ictimai dəstəyə zərrə qədər gümanı qalmayıb. Əksinə, narazılıqların dinamik şəkildə artımı, etirazların, nümayişlərin bir-birini əvəz etməsi, hər bir sahədə hakimiyyətdən narazılıqların olması, göstərir ki, ictimai dəstəyə artıq Paşinyan komandasının ümidi ola da bilməz.

Məsələnin Ermənistan hakimiyyəti, şəxsən baş nazir üçün, ən acınacaqlı tərəfi ondan ibarətdir ki, inqilab yoldaşı da, artıq Paşinyanı tərk edir. Özü də narazılıqlar fonunda tərk edir. İtaətsizlik edir, tapşırıqlarına əməl etmir və ümumiyyətlə, onunla fikir ayrılıqları var. Görəsən, məsələnin kökündə nə var ki, məhz güc strukturlarının rəhbərləri Paşinyanla razılaşmır və hətta istefa ərizəsi də yazır? Təbii ki, bir vaxtlar demokratiya, insan haqları, hüquqlar və azadlıqlar deyə pafoslu çıxışlardan istifadə edərək, hakimiyyəti ələ keçirən Paşinyanın, indi güc yolu ilə hakimiyyətini qorumaq istəyi, məsələnin kökündə dayanan ən başlıca amildir. Ona görə ki, artıq erməni baş nazir öz hakimiyyətini milli təhlükəsizlik, polis kimi güc strukturlar hesabına qoruyur. Hazırkı Ermənistan hakimiyyətinin polisdən başqa müdafiəçisi olmadığını Paşinyan və onun komandası çox yaxşı dərk edir.

## Paşinyan öz hakimiyyətini qorumaq üçün onunla meydanda olan inqilab yoldaşını da güdaza verə bilir

Bu insanlar, həqiqətən, günahkardırlar, yoxsa bu hökumət daxilindəki problemdir? Yaxud müxtəlif məsələlərdə fikir ayrılıqları, ciddi boşluqlar demək deyilmi? Əvvəla, Paşinyan günahkar hesab etdiyi, itaətsizlikdə, fikir ayrılığında qınadığı insanları məmur təyin etmişdisə, deməli, onlar indi - hazırkı vəziyyətdə baş nazir üçün itaətkar və günahkar hesab olunurlar. Deməli, istefa verən məmurlar, heç də günahkar deyillər. Günah elə Paşinyanın özündədir. Ümumiyyətlə, bu ayrı-ayrı fərdlər, məmurlar arasında yox, hökumət daxilindəki problemdir.

Bir tərəfdən, müxtəlif məsələlərdə fikir ayrılıqlarını və ciddi boşluqların yaranmasını təhlil etdikdə, Ermənistan hökumətinin ciddi daxili problemlərlə üzləşdiyi aydın olur. Digər tərəfdən, ictimai narazılıqların artması, əvvəlki sistemdəki müxtəlif qrupların təzyiqi Ermənistanın mövcud hakimiyyətinin, Paşinyan komandasının təkcə daxili deyil, həm də çox ciddi problemlərindən xəbər verir. Əbəs yerə deyildi ki, Vanesyan Paşinyanın yürütdüyü siyasəti elementar və məntiqsiz bir siyasət adlandırıb.

İndi polis rəisinin də istefası sıradan bir istefa və sıradan bir hadisə deyil. Çünki istefa verən polis rəisi Osipyan baş nazirin şəxsən inqilab yoldaşı, bir sözlə, əqidədaşıdır və onun istefası Paşinyan üçün daha böyük zərbədir. Ona görə böyük zərbədir ki, daxildə ictimaiyyət də, xaricdəki müşahidəçilər də, qulaqları demokratiya, azadlıq və insan haqları kimi inqilabi şuarlarla doldurulmuşlar da, pafoslu şuarlarla aldadılmışlar da bu istefadan sonra Paşinyanın nə yuvanın quşu olduğunu açıq-aşkar gördülər. Gördülər ki, Paşinyan öz hakimiyyətini qorumaq üçün onunla meydanda olan inqlab yoldaşını da güdaza verə bilir.

Məsələ burasındadır ki, erməni baş nazirin bu simasını, bu sifətini ictimaiyyət çox yaxşı gördü və artıq Paşinyan dərk etməlidir ki, Osipyanın istefası onun üçün bir siqnaldır. Baş nazir dərk etməlidir ki, onun özü və bütün nümayişçilərlə, inqilaba birlikdə gedən polis rəisi ondan ayrılır. Daha dəqiq desək, onun bütün nümayişçi yoldaşları, inqilabi gücü, bir sözlə, mahiyyəti ondan ayrılır. Bu da, öz növbəsində, Ermənistanda yeni bir mərhələnin, yeni inqilab qığılcımlarının başlanğıcını göstərir.

*İnam HACIYEV*

# Zori Balayanın nəvəsi Paşinyanın oğlunu döyüb

## *"Hraparak" qəzetinin ilginc iddiası Ermənistanı qarışdırdı*

***Ermənistanda yerli ermənilərlə qarabağlılar arasında kəskin qarşıdurmaların getdiyi zamanda, növbəti hadisə bu vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Budəfəki məsələ isə, artıq kifayət qədər çərçivədən çıxıb və məlum olub ki, baş nazir Nikol Paşinyanın Qrabağda "hərbi xidmət" keçən oğlunu ermənilərin baş terrorçusu hesab edilən Zori Balayanın nəvəsi döyüb. Məsələnin təfərrüatına gələnə qədər, qeyd edək ki, Paşinyanin oğlunun Qarabağdan Ermənistana çıxarılmasının da səbəbi, məhz həmin münaqişədir. Eyni zamanda, kiçik Paşinyanı yalnız Zori Balayanın nəvəsi deyil, eləcə də, onunla birgə hərbi xidmət keçən digər Qarabağ əsilli ermənilər də möhkəmcə əzişdiriblər.***



Təfərrüatlara gəlincə isə, adıçəkilən erməni nəşri qeyd edir ki, Aşot Paşinyan atası Nikolun Ermənistanı "sahmana" salanizi ilə getmək qərarına gəlib və o, nəinki əsgər yoldaşlarına, hətta zabit heyətinə, necə deyərlər, ağıl qoymağa çalışıb. Habelə, ən cüzi məsələlərlə bağlı baş verənləri komandanlığa donos ötürüb. Nəticədə bu, onun əsgər yoldaşları, başda Zori Balayanın nəvəsi olmaqla, kiçik Paşinyanı döyüblər.

Ancaq həmin məlumatı tələm-tələsik şəkildə Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan yalanlamağa çalşıb. Lakin onun bəyanatından sonra belə nəticə çıxarmaq olar ki, Aşot Paşinyanın hərbi yoldaşları ilə münaqişəsi hər halda olub. O öz bəyanatında deyib: "Hraparak" növbəti dəfə hər şeyi baş-ayaq edib və insanların taleyi ilə oynayır. Əgər öz qardaşlarınızdan, ya da əsgər yoldaşlarınızdan soruşsanız, onlar da təsdiq edərlər ki, bu cür məsələlər bütün kollektiv və strukturlar üçün xarakterikdir və bütün çağırışçılarda adaptasiya problemləri yaşanır... "Haparak" bütün bunları qaba səhvlərlə və yolverilməz xarakteristika ilə təqdim edib" deyə Ovannisyan "feysbuk"da yazıb.

Bu isə, bir daha təsdiq edir ki, əslində, hadisə baş verib və hətta kiçik Paşinyan da kiçik Balayan tərəfindən möhkəmcə döyülüb. Nəticədə isə, digər məsələ-Ermənistan ermənilər ilə Qarabağ erməniləri arasındakı uçurum dərinləşib və çox yəqin ki, Nikol oğlu Aşotun revanşını Zoridən alacaq.

*Rövşən RƏSULOV*

# Fuad Qəhrəmanlının tərəfdarına istehzalı sual: "Sizi də döyüb bəy?"

Fuad Qəhrəmanlı olayının ardınca sosial şəbəkələrdə müzakirələr bir-birini əvəzləməkdə davam edir. SİA xəbər verir ki, onun öz ailəsinə qarşı törətdiyi şiddət məsələsində feminist və anti-feminist AXCP üzvləri arasında kəskin qarşıdurmalar baş verməkdə, o cümlədən istehza xarakterli atmacalar səsləndirilməkdədir. Bu arada, Fuad Qəhrəmanlını dəstəkləyən AXCP üzvü feysbukda onu dəstəklədiyini, hətta bir ailə üzvü olduğunu yazıb.




Lakin digər biri onun "Fuad bəy, biz bir ailənin üzvüyük" statusunun altından istehzalı sual yazıb: "Sizi də döyüb bəy?" Həmin status və bu statusa verilən sual isə sosial şəbəkə istifadəçilərinin gülüşünə səbəb olub.

*Rövşən*

# Ermənistanda eks-məmurlar intihar həddinə çatdırılır



Ermənistanın keçmiş polis rəisi general-polkovnik Ayk Arutyunyan öz evində ölü tapılıb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə istintaq komitəsindən məlumat verilib. Məlumatda qeyd olunur ki, faktla əlaqədar "intihar həddinə çatdırma" maddəsi ilə cinayət işi açılıb. Həmçinin məlumatda bildirilir ki, Arutyunyanın cəsədi baş nahiyəsində güllə yarası ilə tapılıb. Qeyd edək ki, Arutyunyan 2003-2008-ci illərdə Ermənistan polisinin rəhbəri olub. "1 Mart 2008" cinayət işi ilə əlaqədar şahid qismində istintaqa cağırılıb.

# Zümrüd Yağmur: "Əlimdəki faktları yaysam, AXCP-nin süqutu olacaq"



AXCP sədrinin keçmiş müavini Fuad Qəhrəmanlının zorakılığına məruz qalan həyat yoldaşı Zümrüd Yağmur AXCP-nin sədri Əli Kərimlinin müşaviri Məmməd İbrahimin iddialarına cavab verib. Məlumata görə, M.İbrahim F.Qəhrəmanlının ailəsində zorakılığın olmadığını, Z.Yağmur və onun qızlarına qarşı heç bir işgəncə verilmədiyini bildirib. Məsələyə münasibət bildirən Zümrüd Yağmurun Məmməd İbrahimə səs yazısı ilə cavabı yayılıb. Z.Yağmur əlində bu barədə konkret faktların olduğunu, həmin faktların yayılacağı təqdirdə AXCP-nin süqutu olacağını deyib: "Selcanı əməlli-başlı linç elədilər. Deyirlər ki, Selcan yalan deyir, Sənayın dizi qırılmayıb. İndi mən zəng vurub Məmməd İbrahimə dedim ki, sən hardan bilirsən? Dedim mənim səbrimi, qəzəbimi daşırmayın. İndi götürüb Sənayın ayağının qırılma anlarını, gipsli şəkillərini, raporunu, əlimin qırılmasını, gipsli şəkillərimi paylaşsam, arxasında dura biləcəksiniz? Yəni bu qədər ədalətsizlik, yalan olmaz. İndi də mənim uşağımın yalançı olması haqqında emosional durum, psixoloji durum budur deyirlər. Yəni bu qədər kor-koranə təəssübkeşlik olmaz. Eləyirsiniz eləyin, mən buna susuram, amma uşaqlarımı əzdirməyin üzərindən yox".

# Ünsiyyətli müəllimə

***1982-ci ildə ADPU-nun pedaqoji kollektivinin sıralarına uzun qara hörüklərini arxaya atmış, çatmaqaşlı, boylu-buxunlu bir müəllimə də qoşuldu. Həlim görkəmli, utancaq məsum baxışları ilə əyalət qızlarını xatırladan bir gənc müəllimənin ilk baxışdaca nəzərə çarpan xarakterik keyfiyyəti onun mehribançılığı və ünsiyyətcilliyi idi. Məhz bu xüsusiyyətinə görə də, kollektivə tez isinişdi, qaynayıb-qarışdı.***

Dərs dediyi tələbələrinin qəlbinə az bir vaxtda yol tapdı. Onların sevimlisinə çevrildi. Tədris etdiyi "Azərbaycan dili və onun tədrisi metodikası" fənnini ümumi ixtisas fənləri içərisində bütün tələbələrin fəal maraq obyektinə çevirə bildi. O vaxtlar həmin fənni yüksək səviyyəli peşəkar müəllimlər aparırdılar. Pəri müəllimə onların hamı tərəfindən qəbul edilən avtoriteti və nüfuzu qarşısında xofa düşüb, özünü itirmədi. Əksinə, özünü, necə deyərlər, oda-közə vurdu, onlardan geri qalmadığını sübuta yetirdi. Dünya ədəbiyyatı klassikləri ilə hərtərəfli tanışlığı yüksək bədii-estetik zövqü, geniş mütaliə dairəsi, habelə, yaşına uyğun olmayan pedaqoji ustalığı tezliklə onu diqqət mərkəzinə çevirdi. Pedaqoji və metodiki şuraların yığıncağında, ədəbiyyat fənn birləşməsində öz fənninin ayrı-ayrı mövzularının tədrisini metodikasına dair, habelə, özünün iş təcrübəsi ilə bağlı məruzələri onun müəllimlik peşəsinə çox möhkəm bağlandığını təsdiq etdi. İctimai işlərdə də özünü bacarıqlı və təşkilatçı tədris prosesinə dərindən bələd olan bir təhsil işçisi kimi göstərə bilmişdir. Ümumiyyətlilik insanın vacib keyfiyyətlərindəndir.

Bu keyfiyyət təlim-tərbiyə prosesində bir önəm daşıyır, çünki tədrisdə hər şeyi quru didaktika, cansız və rəsmi münasibətlər üzərində qurmaq səmərə vermir. Pəri müəllimədə ünsiyyətçillik məziyyəti çox güclüdür. Məhz bunun nəticəsidir ki, o, hamı ilə, hətta ipə-sapa yatmayan tələbələrlə belə tezliklə dil tapmağı, ünsiyyətə girməyi bacarır. Buna görə də, Pəri müəllimə 3 aprel 1954-cü ildə Tovuz rayonunda ziyalı ailəsində anadan olmuşdur.

1972-ci ildə ADPU (APİ) Filologiya fakültəsinə daxil olmuş və 1976-cı ildə ali məktəbi bitirmişdir. Uzun müddətdir ki, ADPU-da çalışır, taleyini bu ali təhsil müəssisəsinə bağlamışdır. Ailəlidir, iki övladı var. Ona bu şərəfli işində çox böyük uğurlar arzulayıram.

**Pərini gözləyirik**

Bu gün əziz günümüzdü,
Yolumuzda dağdı-düzü.
Qızıl rəngli, qızıl üzlü,
O Günəşi gözləyirik.

Günəş təkdir bu dünyada,
Pəri bir bəzək bu dünyaya.
Ömrümüzün səhəridir,
Tez gəl səhər, gülümsə dan,
Pəri Şəmsi gözləyirik.

Mürgüləyib yatır duman,
Bizimlə rəqs edir zaman.
Tez gəl səhər, gülümsə dan,
Bir Pərini gözləyirik.



Pəri təkdir bu dünyada,
O bir bəzək bu dünyaya.
Ömrümüzün səhəridir,
Tez gəl Pəri, həm gülümsə,
Bu millət səni gözləyir.

***Quliyeva Taisə Sarı qızı,***
***ADPU-nun ingilis dili kafedrasının***
***baş müəllimi, əmək veteranı***

# Bakıda "Xəzəri qoruyaq!" adlı kütləvi ekoloji aksiya keçirilib

***Beynəlxalq Sahilyanı Təmizlik Günündə ölkənin nüfuzlu şirkətləri, dövlət qurumları, müxtəlif təşkilat və yüzlərlə könüllülərin iştirakı ilə keçirilmiş "Xəzəri qoruyaq!" adlı genişmiqyaslı ekoloji aksiya çərçivəsində Buzovna çimərliyi tullantılardan təmizlənib.***



"Coca-Cola", "Bakcell", "PAŞA Bank" şirkətlərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, ASAN Könüllülük Məktəbinin təşkilatçılığı, həmçinin, Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin, ABŞ-ın və Avropa İttifaqına üzv ölkələrin səfirliklərinin, ADA universiteti, "AzEkol", "Carlsberg Azerbaijan", "Nargis" jurnalı, "ASAN Radio", "Xəzər TV", AFFA və Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilmiş aksiya çərçivəsində 700-dən çox insan sahilyanı ərazini 3 tona yaxın tullantıdan təmizləyib.

"Xəzəri qoruyaq!" aksiyası çərçivəsində toplanılmış tullantıların bölgüsü belədir: 1815 kq qida qalıqları, tikinti materialları və şüşə, 211 kq plastmas, 30 kq karton və kağız, 15 kq sellofan torba.

Qeyd edək ki, dünyanın bir çox ölkəsi hər il 21 sentyabr tarixini Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər. Azərbaycan da bu beynəlxalq ekoloji aksiyada artıq 9 ildir ki, iştirak edir.

""Coca-Cola" bütün dünyada aktual olan məişət tullantıları probleminin həllində fəal rol oynayır. Azərbaycanda artıq 9 ildir ki, çoxsaylı tərəfdaşlarımız ilə birlikdə Xəzər dənizinin sahillərini hər il çimərlik mövsümü bitdikdə məişət tullantılarından təmizləyərək, insanları ətraf mühitə qarşı daha məsuliyyətli olmağa çağırırıq. Çox şadıq ki, Azərbaycan bu beynəlxalq hərəkatda hər il fəal iştirak edir və bu yolla biz, ölkəmizin, Xəzər dənizimizin daha təmiz olmasına töhfəmizi vermiş oluruq." - deyə "Coca-Cola" şirkətinin Qafqaz regionu üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Elşad Fərzəliyev bildirib.

"Hər il daha çox insanın, xüsusilə də gənclərin fəal şəkildə bu ekoloji aksiyaya qoşulduğunu müşahidə edirik və bu fakt bizi sevindirməyə bilməz. Bu tədbir sadəcə ekoloji aksiya deyil, həm də rəngarəng proqramı ilə böyük bir bayramdır. "Bakcell" şirkəti qarşıdakı illərdə də bu böyük layihəyə dəstək verməyə hazırdır." deyə "Bakcell" şirkətinin PR və Korporativ kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova vurğulayıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli bu tip layihələrin gənclərin inkişafına verdiyi töhfəni vurğulayıb: "Hər ötən il aksiyaya qatılan könüllülərin sayı durmadan artır. Builki aksiyaya 500 "ASAN könüllüsü"nün qatılması gənclərin ekoloji layihələrə marağının artmasının bariz nümunəsidir. Ekoloji layihələrin gənclərin həm də sosial məsuliyyətli fərd kimi formalaşmasında xüsusi yeri var. Bu layihə sayəsində gənclər öz üzərlərinə düşən məsuliyyəti dərk etmiş olurlar".

"Xəzəri qoruyaq!" şüarı altında Buzovna çimərliyində keçirilən aksiya çərçivəsində təxminən 3 tona yaxın tullantı qismən emala göndərilib, qalan hissəsi isə Balaxanı poliqonuna göndərilib. Hər il çimərlik mövsümünün sonunda gənclərin, şirkət əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumunun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik üçün lazımi ləvazimatlarla təmin olunub.

# "Nar" tələbələr üçün təqaüd proqramı elan edir!

***Ölkədə informasiya texnologiyaları sahəsində yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsini hər zaman diqqət mərkəzində saxlayan "Nar" mobil operatoru Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq çərçivəsində tələbələr üçün təqaüd proqramı elan edib. Universitetin informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan tələbələr təqaüd proqramında iştirak edə bilərlər. Bu təqaüd proqramı çərçivəsində 2019-2020-ci tədris ilində müvafiq ixtisaslardan olan və dərslərində yüksək göstəricilərə malik 5 tələbəyə aylıq təqaüd veriləcək.***

Xatırladaq ki, "Nar" artıq ikinci ildir ki, rabitə sahəsində gələcəyin yerli peşəkarlarının yetişdirilməsinə dəstək məqsədilə Naxçıvanlı tələbələri üçün təqaüd proqramı təşkil edir. "Nar" KSM startegiyası çərçivəsində müxtəlif yaş qruplarından və sosial təbəqələrdən olan şagird və tələbələrin maarifləndirilməsi, dünyagörüşünün artırılması və analitik düşüncə qabiliyyətinin inkişafı istiqamətində bir çox layihələrə imza atıb. Eyni zamanda, informasiya texnologiyaları sahəsinin daha da gücləndirilməsi və təşviqi üçün mobil operator təhsil müəssisələri ilə də əməkdaşlıqlar edir. Belə ki, Azərbaycan Texniki Universiteti və ADA Universiteti ilə tələbələrin praktiki biliklərinin inkişafına yönəlik uzunmüddətli layihələr həyata keçirilir.

"Nar"ın KSM layihələri barədə daha ətraflı məlumatı nar.az səhifəsindən əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# AXCP sədrinə Türkiyədən sərt ismarıc

## Oktay Hacımusalı: *"Əli Kərimli sədaqətdən danışmalı və ətrafında sadiq axtarmalı olan sonuncu insandır"*

***"Yaxın adamının xəyanətinə məruz qalan özünə siyasətçi deyə bilərmi? Siyasətdə ən önəmli məqam bir siyasətçinin ətrafına ona sadiq olan, sədaqətini, əsla, sorğulamayacağı, ya da sorğulamağı, hətta ağlının yaxınına belə buraxmayacağı insanları toplamaq, toplaya bilməsidir, heç şübhəsiz". Bu barədə Türkiyədə fəaliyyət göstərən jurnalist Oktay Hacımusalı Musayev AXCP-də son günlər baş verən hadisələrə, xüsusilə, müavini Fuad Qəhrəmanlının gizli səs yazısının ictimailəşdirilməsinə münasibətini açıqlayarkən deyib.***

### "Şübhəsiz ki, bu dünyada İlahi ədalət adlanan bir qavram var"

Onun sözlərinə görə, lider o şəxsə deyirlər ki, yaxın çevrəsindəki siyasilərin keçmişini, bu gününü və sabahını sorğulamadığı, ya da sorğulamağı ağlının ucundan keçirmədiyi kimi, gərək kimsə də onun keçmişini, xüsusən də, siyasi keçmişini sorğulamasın, yaxud da sorğulamağı ağlının ucundan keçirməsin. İQTİBAS: "Bir zamanlar özü, lideri hesab etdiyi şəxsə qarşı xəyanət edən, nəzarətində olan media orqanları vasitəsi ilə öz liderini təhqir etdirən, vəfat etdiyi gün haqqında, hətta daha da irəli gedərək, hərzə və hədyan yazdıran Ə.Kərimli, düşünürəm ki, sədaqətdən danışmalı və ətrafında sadiq axtarmalı olan sonuncu insandır. Şübhəsiz ki, bu dünyada İlahi ədalət adlanan bir qavram var və bu qavram bu günlərdə Fuad Qəhrəmanlının yayılan səs yazısı vasitəsi ilə Ə.Kərimliyə bir daha sübut olundu".



### "Sübut olundu ki, necə o, mərhum Əbülfəz Elçibəyə xəyanət edibsə, eləcə də, ona rahatlıqla xəyanət edə bilərlər"

Jurnalist Ə.Kərimlinin zamanında "liderim" dediyi şəxsə qarşı törətdiyi ağılasığmaz xəyanətlərini də xatırlayaraq, bildirib ki, artıq onun vaxtilə etdiyi həmin hərəkətləri, məhz F.Qəhrəmanlı tərəfindən ona qaytarılır. SİTAT: "Sübut olundu ki, necə o, mərhum Əbülfəz Elçibəyə xəyanət edibsə, eləcə də, ona rahatlıqla xəyanət edə bilərlər. Sübut olundu ki, necə o, mərhum Əbülfəz Elçibəyin kürəyindən vurmuşdusa, eləcə də, onu ən yaxınları kürəyindən vura bilər. Sübut olundu ki, necə o, zamanında partiyanın rəhbərliyinə gəlmək məqsədi ilə müəyyən xaricdəki antimilli ünsürlərlə əməkdaşlıq edirdisə, indi də Fuad Qəhrəmanlı eləcə xaricdəki müəyyən antimilli dairələrlə əməkdaşlıq edir və Azərbaycandakı Ə.Kərimli dönəmini bitirməyə cəhd göstərir. Bu İlahi ədalət, həm də dünyanın dəmir və taxta qapılardan ibarət olmadığını Əli Kərimliyə xatırlatdı. Xatırlatdı ki, partiya daxilində yeniləşmənin qarşısını almaq məqsədi ilə, illərdir heç etdiyiniz Azərbaycan gəncinin həm özlərinin, həm də analarının ahı yerdə qalası deyil".

### "Fuad Qəhrəmanlı Əli Kərimliyə yolunun üstündə dığırlanıb qalmış içi boş kötük kimi baxır"

Bu mənada, ətrafındakı insanlardan, xüsusilə, gənclərdən öz çirkin və qaranlıq məqsədləri üçün istifadə edib, sonradan onları bir kənara atan Ə.Kərimlinin daxilindəki şeytançılıq obrazı və həmin obrazının F.Qəhrəmanlı tərəfindən alt-üst edən şarlatançılıq reallığı önə sürülüb: "Xatırlatdı ki, evini-eşiyini, varini-yoxunu satdırıb, xaricə siyasi sığınacaq almaq üçün göndərdiyiniz, kamplarda əsir-yesir ortada qalan xalqımızın övladları hər gün sizin üçün dua edirlər. Hər halda, bu duaların xoş niyyətli olmadığını özünüz də çox yaxşı bilirsiniz, Əli bəy! Düzdür, F.Qəhrəmanlı həmin səs yazısında "iqtidara işlədiyini" deyir, AXCP sədri Ə.Kərimlidən isə, sadəcə, öz məqsədləri üçün istifadə etməyə çalışdığını vurğulayır, amma fikrimcə, F. Qəhrəmanlının əsl məqsədi siyasi ambisiyalarını realizə etməkdir və o, sizə əksər partiyadaşlarının baxdığı kimi yolunun üstündə dığırlanıb qalmış içi boş kötük kimi baxır. Çünki Azərbaycan siyasətində artıq sizə yer yoxdur, Əli bəy!"

### "Bu ölkə Suriya olmadan, Liviya olmadan, Misir olmadan rahat yaşamaq istəyir"

Oktay Hacımusalı, sonda onu da qeyd edib ki, artıq zaman, dövr dəyişdikcə, köhnə, nimdaş və yararsız siyasət cəmiyyət tərəfindən rədd edilir: "Dövr dəyişib, ətrafınıza, dünyaya baxın, zəhmət olmasa! Psixoloji travmalarla dolu bir cəmiyyət istəmir bu ölkə. Tam tərsi bu ölkə Suriya olmadan, Liviya olmadan, Misir olmadan rahat yaşamaq istəyir. Bu ölkə milli maraqları uğrunda iqtidarı ilə müxalifətini bir arada görmək istəyir. Qarşıdurma, xaos və anarxiya görmək istəmir. Məncə, bir mövcud vəziyyəti dəyərləndirin və düşünün, yaxın ətrafının xəyanətinə məruz qalan siyasətçi deyə bilərmi sizcə?"

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifətin mitinq qovğası...

## *Və yaxud aksiya üçün niyə "Gənclik", "Nərimanov" və "28 May" istənilir?..*

***Deyir, həya-abır yaxşı şeydir, o kəsdə varsa. Nə qədər abırsız olasan ki, Fuad Qəhrəmanlı olayından sonra yenidən mitinq iddiasına düşəsən. Bir partiyaya əxlaqsız, mafioz və satqın Ə.Kərimli rəhbərlik edirsə, istər onun müavinləri olsun, istərsə də ətrafındakılar olsun, hər şey puldur.***

Belə bir durumda Ə.Kərimlinin nəzarətində olan AXCP-nin orbitindən çıxa bilməyən, formal olaraq, müstəqil qurum adını daşıya bilməyən "Milli Şura"-nın 28 sentyabra mitinq təyin etməsi, həqiqətən də, mafiozluqdur. "Milli Şura"nın antimilli maraqlara xidmət etməsi, bəlli olsa da, qarşıdakı bələdiyyə seçkiləri ərəfəsi, yenə də həyasızlığından əl çəkmir. Bunu müxalifət nümayəndələri də təsdiqləyirlər ki, bu qondarma qurum qaranlıq məqsədlərə xidmət etmək üçün yaradılıb və bu qurumun dəfələrlə uğursuz mitinq keçirmək istəməsi bunu bir daha sübut edir. Bu, o qurumdur ki, hələ seçkilərin keçirilməsinə 3 ay vaxt qalmasına baxmayaraq, müxaliflər seçkinin qeyri-demokratik keçiriləcəyi haqqında əsassız uydurmalar yayır və dünən də, bu gün də bu çirkin niyyətlərindən əl çəkmirlər. Çünki artıq indidən uğursuzluqlarını görürlər.

Belə bir durumda, Ə.Kərimlinin nəzarətində olan AXCP-nin orbitindən çıxa bilməyən, formal olaraq, müstəqil qurum adını daşıya bilməyən "Milli Şura"-nın 28 sentyabra mitinq təyin etməsi, həqiqətən də, mafiozluqdur. Mitinqin təyin edilməsi həm də maraqlı dönəmə - iqtidarla müxalifət arasında sentyabrın 11-də keçirilən "dəyirmi masa" və onun ardınca Ə.Kərimlinin müavini F.Qəhrəmanlının ailəsində baş verən olaylar, eyni zamanda, Müsavat-AXCP qarşıdurması fonunda Ə.Kərimli - C.Həsənli gərginliyinin baş verməsinə təsadüf edir. O zaman sual yaranır: belə bir durumda, kimin aqibəti necə olacaq və digərləri bunlara dəstək verə biləcəklərmi?

Maraqlı məqam isə, müxalifətin daim icazəli aksiyalar keçirdiyi məkan kimi tanınan "Məhsul" stadionunun təmirə bağlandığı bir vaxtda mitinq qərarının verilməsi və aksiyanı keçirmək üçün üç metrostansiyasının qarşısının göstərilməsi ciddi suallar doğurur.

1) Metronun "28 May" stansiyasının qarşısı; 2) "Nərimanov" stansiyasının qarşısı; 3) "Gənclik" stansiyasının qarşısı.

Aydındır ki, belə izdihamlı yerlərdə mitinqə, prinsipial olaraq, icazə verilə bilməz. Heç orada mitinqin keçirilməsi üçün lazım olan şərait də yoxdur. Bəs dağıdıcıların belə gur yerlərdə mitinq keçirmək istəklərinin kökündə hansı maraqlar dura bilər?

### Niyyətləri aydın, əməlləri bəlli...

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlli açıqlamasında bildirdi ki, bu, artıq açıq şəkildə ölkənin qanunlarına və təhlükəsizlik mühitinə meydan oxumaqdan başqa bir şey deyil: "Dağıdıcı müxalifətin əsas məqsədi ölkədə siyasi sabitliyi pozmaqdır. Təbliğat ruporu rolunda xaricdən yayımlanan internet səhifələri və televiziyaları çıxış edirlər. Onlar yay boyu payıza hazırlıqla bağlı təbliğat aparırdılar. Açıq şəkildə deyirdilər ki, payızda inqilab etmək istəyirlər. Ə.Kərimli və onun dəstəsinin bu addımları sübut edir ki, proseslər eyni mərkəzdən idarə edilir. Məqsəd birdir: Azərbaycandakı sabitliyi pozmaq. Onlar anlayırlar ki, seçki yolu ilə nəsə edə bilməyəcəklər, çünki arxalarında lazım olan elektoratları yoxdur. Bu səbəbdən də, belə yollara əl atırlar. Deyilən metro-stansiyalarının çıxışında nə vaxt görübsünüz ki, mitinq keçirilsin? Elə təklif etdikləri yerlərdən, onların niyyətləri aydın görünür. Təbii ki, icazə vermək səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinə aiddir. Əlaqədar qurumlar da qarşıdurma yaratmaq niyyətini görməlidirlər. Bu, bir sifarişdir. Prosesə siyasətlə heç bir əlaqəsi olmayan sadə vətəndaşları da zorla cəlb etmək istəyirlər. Ancaq bilməlidirlər ki, Azərbaycan dövləti güclüdür və hər bir təxribatın qarşısını almağa qadirdir. Aydın şəkildə görünür ki, burada dinc etiraz etmək yox, ölkəni xaosa sürükləmək cəhdi var".




### Əli Kərimlinin Şeyx Nəsrullah oyunu

Belə bir durumda yalançıların yeni həşiri nə ilə nəticələnəcək? Bəllidir: əvvəlki mitinqlər kimi, fiaskoya uğrayacaq. Bəlkə yox, bloqer Ə.Kərimli?

Bir faktı yüz müstəviyə inikas etdirib siyasiləşdirmək, məntiq eybəcərliyini ədalət axtarışı kimi qələmə vermək vicdandan və ədalətdən kənar olay deyilmi, müxalifətin Şeyx Nəsrullahı? Azərbaycanın müxalifət düşərgəsində qocalaraq nimdaşlaşan satqın, əxlaqsız Ə.Kərimli, Azərbaycanın uğurlu inkişafına ləkə atmaq üçün bütün alçaqlığa əl qoyursan. Çünki satqın üçün xalq, dövlət və millət - mənəvi dəyərlər yoxdur. Əlbəttə, Ə.Kərimlini satqın zehniyyəti maliyyə-pul arqumentidir. Çünki satqın üçün hər şey - satılıq maldır. Çünki Ə.Kərimli Azərbaycanda xaosun, anarxiyanın yaradılmasının təşkilatçılarından və təbliğatçılarından biri və ya birincisidir. O öz ətrafı, Amerika və Avropadakı imkanları ilə özünün pozuculuq fəaliyyətini aparmaqda israrlıdır. Bu baxımdan, onun mitinq təyin etməsi təsadüfi deyil. Əsas niyyət budur. Amma Ə.Kərimli kimi satqınlar, əmin olsunlar ki, Azərbaycan dövləti güclüdür. Qanunlara söykənərək, hər bir vətəndaşın hüquq və azadlıqları nəzərə alınmaqla, sabitlik üçün bütün lazımi işlərini görür. Xalqımız da Ə.Kərimli və onun havadarlarına Azərbaycanı Suriyaya çevirmə cəhdlərinə imkan verməyəcək. Ona görə də, dağıdıcı müxalifətin qarşıdakı bələdiyyə seçkiləri ərəfəsi mitinq çağırışları ilə "ölkəni silkələmək" iddiasına qarşı öz etirazlarını bildirirlər. Dağıdıcı müxalifət isə, hələ də dünyaya qara eynəklə baxır. Görünən odur ki, çürüməkdə olan dağıdıcı müxalifətin iflası qaçılmazdır.

***Rəfiqə HÜSEYNOVA***

# İnsan hüquqları ideyasının inkişafı

***İnsan hüquqları haqqında təsəvvürlərin meydana gəlməsi tarixi kifayət qədər qədim olsa da, "insan hüquqları" anlayışının özü gəncdir. Belə ki, B.S.Baçur və Y.V.Koç yazır: "İnsan hüquqları" anlayışı burjaziya inqilabı dövründə vətəndaşlıq institutunun formalaşması prosesinin məhsuludur. Ümumiyyətlə, tarixi inkişafın xüsusiyyətləri aydın göstərir ki, hüququn inkişafı iki prosesin qarşılıqlı fəaliyyəti prosesində baş verir. Bunlar qloballaşma və differensiasiya prosesləridir. Avropa hüquq normalarının yayılmasını Avropa mədəniyyətinin dünyanın digər regionlarına inteqrasiyası şərtləndirilmişdir."***

İnsan hüquq və azadlıqlarının müxtəlif tarixi dövrlərdə inkişafı fundamental prinsiplər sahəsində, təbii hüquqlar əsasında deyil, məhz pozitiv hüquqlar sahəsində baş vermişdir. Tədqiqatçıların böyük əksəriyyətini birləşdirən mövqe, məhz ondan ibarətdir ki, bu, müvafiq hüquq və metodların axtarışını stimullaşdırır. İnsan hüquqlarının təbiətinə dair çoxsaylı yanaşmaların təhlili aydın göstərir ki, bu hüquqların əsasında nəyin dayanması ilə bağlı məsələ birdəfəlik həllini tapmamışdır. Üumumi şəkildə, xüsusilə, xristian dini yanaşmada əsaslandırılır ki, insan hüquqları dünyanın yaranması ilə insanlara ilahidən verilmişdir. Onların hansısa institutlar, dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən verilməsi haqqında, ümumiyyətlə, danışmaq yanlışdır. Bu strukturlar, sadəcə, ilahi tərəfindən müəyyənləşdirilmiş hüquqların həyata keçirilməsi ilə məşğuldurlar. Qeyd edək ki, əsas insan hüquqlarının mahiyyətinə və mənşəyinə bu bucaqdan yanaşmanın kifayət qədər qədim tarixi köklərinə rast gəlmək mümkündür. Məsələn, nümunə üçün XIII əsrin sonlarında yaşayan Dantenin fikirlərinə nəzər salaq. Dante yazırdı ki, Nuh Peyğəmbər insanın təbiətinə azadlıq əlavə etmişdir. İnsan hüquqlarının tədqiqi ilə məşğul olanlar əsaslandırırlar ki, insan hüquqlarının qəbul olunması ləyaqətin qəbul olunmasıdır. Ləyaqət insan hüquqlarının mütləq xüsusiyyəti kimi qiymətləndirilir və insanın mahiyyətinin daimiliyini ifadə edir. İstənilən dövlətdə, camiyyətdə ləyaqətin qorunmasını insan hüquqlarının praktiki reallaşdırılması şərtləndirir. Bu hüquqlar ictimai tərəqqi prosesində daha çox subyektlər dairəsinə yayılmışdır. Bildiyimiz kimi, tarixi inkişaf prosesi heç də stabil və rahat getməmişdir. Daimi münaqişələrlə yanaşı, hüquq və azadlıqlar uğruna sosial mübarizələr də bu prosesi müşayiət etmişlər. Onlar sübut edirlər ki, hər bir insan nəsli insan hüquqlarını daim yenidən müdafiə etməlidir və insan hüquqlarının müdafiə olunmasına ehtiyacın və ya zərurətin olmadığı bir tarixi dövr müşahidə olunmamışdır. Hər bir nəsil insan hüquq və azadlıqlarının qorunması ilə bağlı tarixin dəyişməz çağırışlarına müvafiq tərzlərdə cavab verir.

Artıq əvvəlki hissədə qeyd etdiyimiz kimi, bizim e.ə. V-VI əsrlərdə Afinada və Romada insan hüquqları ideyasının meydana gəlməsi, vətəndaşlıq prinsiplərinin inkişaf etməsi tərəqqi və azadlıq istiqamətində ciddi addım idi. Müxtəlif siniflər və təbəqələr arasında insan hüquqlarının qeyri-bərabər paylanılması, bəzi təbəqələrin isə, ümumiyyətlə, hüquqlardan məhrum edilməsi həmin dövrün ictimai inkişafının xüsusiyyətlərindən biri kimi nəzərdən keçirilə bilər. Tarixi inkişafın hər növbəti mərhələsi insan hüquqlarına yeni keyfiyyətlər əlavə edirdi və onların daha geniş subyektlərə şamil olunmasını şərtləndirirdi. Təbii ki, bu siniflərin, təbəqələrin öz hüquq və azadlıqları uğrunda mübarizələri prosesində mümkün olmuşdur. "Azadlıq" sözünün tətbiqinə isə, b.e.ə. XXIV əsrdə başlanılmışdır. Məlum olduğu kimi, məhz bu zaman Şumer hökmdarı müəyyən azadlıqlar müəyyənləşdirmişdir.

D.Qəmbərov yazır: "Ümumiyyətlə, qeyd edə bilərik ki, antik təfəkkürdə insan hüquqları ideyası özünə ciddi yer edə bilməmişdir. Dövriyyədə olan, sadəcə, vətəndaş hüquqları idi. Bu, özünü bir çox obyektiv məqamlarda büruzə verirdi. Bu məqamları ümumi şəkildə aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:

- fərd sosiumdan kənar məna kəsb etmirdi və yalnız dövlətin üzvü kimi sosial imkanlardan istifadə edirdi;

- dövlətlə fərd arasındakı münaqişələr həmişə dövlətin xeyrinə həll olunurdu, çoxluğun hakimiyyəti, ümumiyyətlə, məhdudlaşdırılmırdı, fərdlər insan hüquqlarına malik deyildilər. Belə ki, insanların iradə azadlığı qəbul olunmurdu və insanın həyatında və davranışlarında ilahi iradənin rolu qabardılırdı;

-insanlar əlamətlərinə görə fərqləndirilirdi. Yəni irqi, dini, siyasi və hüquqi baxımdan bərabərlik mövcud deyildi.

Yuxarıda nəzərdən keçirdiyimiz məqamlar aydın göstərir ki, antik dövrdə azadlıq ancaq təbəqələrə və ya siniflərə aid idi. Bu, həm də belə nəticəyə gəlməyə əsas verir ki, azadlıq, əsasən, müəyyən təbəqə digərlərindən fərqlənmək üçün tətbiq edilirdi. İstənilən halda, insanlar öz vəziyyətlərini dərk edirdilər və hüquqları və azadlıqları uğrunda intensiv mübarizə aparırdılar. Bu da, zaman keçdikcə, hüquq və azadlıq ideyalarının geniş vüsət almasını şərtləndirirdi. Buna baxmayaraq, orta əsrlərdə də azadlıq kifayət qədər məhdud idi. Bunun da obyektiv səbəbi var idi. Belə ki, orta əsrlərdə feodal cəmiyyəti ümumi tabeçiliyə əsaslanırdı. Feodal cəmiyyəti üçün qeyri-iqtisadi məcburetmə, təbəqə iyerarxiyası və hüquqsuzluk xas idi. Yeni dövrdə isə, vəziyyətin köklü surətdə dəyişdiyi müşahidə olunurdu. Yeni quruluşun hüquqi dünyagörüşləri insan hüquqları və azadlıqları haqqında fərqli təsəvvürlərin meydana gəlməsini şərtləndirmişdir. Belə ki, insan azadlığı şəxsi və ictimai-siyasi münasibətlərdə hüquq elminin üstünlüyü kontekstində nəzərdən keçirilirdi. Yeni dövrdə insan hüquqlarından bəhs olunan yanaşmalarda feodal dövrünün reallıqları kəskin tənqid olunurdu. Bu zaman şəxsiyyətin hüquqları və azadlıqları haqqında yeni konsepsiyalar əsaslandırılırdı və fərd-dövlət münasibətlərində hüququn hökmranlığı ideyası dəstəklənirdi. Bütün bunlar yeni hüquqi dünyagörüşünün, burjuaziya inqilablarının və onların nəticələrinin hüquqi təsbit olunmasını şərtləndirmişdir." Bu prosesin ən vacib elementi qismində, dövlətin fəaliyyətinin hüquqi əsasları və onların mənşəyi kimi ictimai müqavilə konsepsiyası çıxış etmişdir. Bu istiqamətdə qiymətli nəzəriyyələr yaradanlardan biri də hollandiyalı dövlət xadimi və hüquqşünas H.Qrotsiy olmuşdur. H.Qrotsiy yazırdı: "Dövlət azad insanların təkmil ittifaqıdır. Bu ittifaq hüquqların və ümumi rifahın qorunması üçün yaradılmışdır. Özündə hüquqi dövlətçilik ideyasını ifadə edən dövlətin belə dərk olunması müəllifin hakimiyyətin zorakılığına qarşı müqavimət göstərmək cəhdləri kimi qiymətləndirilə bilər. Çünki o, hesab edirdi ki, hakimiyyətin zorakılığı ictimai müqavilənin pozulması kimi qəbul olunmalıdır. Niderlandlı tanınmış filosof Benedict Spinoza təbii-hüquqi baxışları və dövlətin müqavilə konsepsiyasını inkişaf etdirərək, qeyd edirdi ki, reallıqda dövlətin məqsədi azadlıqdır. O, əsalandırırdı ki, vətəndaş vəziyyətində hər kəsin təbii hüququ qurtarmır. Çünki həm təbii, həm də vətəndaş vəziyyətində insan özünün təbiətinin qanunları üzrə fəaliyyət göstərir. Bu qanunlar insanlarda qorxu və ümid yaradır. İnsanların özlərinin təbii hüquqlarından tam məhrum edilməsi tiraniyaya gətirib çıxarar. XVII əsrin sonlarında insan hüquqları ilə bağlı ilk ciddi mülahizələr irəli sürənlərdən biri ingilis mütəfəkkiri Con Lokk olmuşdur. Con Lokkun "İdarəetmə haqqında iki traktat", "Vətəndaş hökuməti haqqında" adlı məşhur əsərlərində əsas insan hüquqları haqqında olduqca əhəmiyyətli tezislərə rast gəlmək mümkündür. Məsələn, Con Lokk əsərlərində, xüsusi olaraq, hamının anadangəlmə yaşamaq, mülkiyyət və azadlıq hüquqlarının olması ideyalarını dəstəkləyir. Əsərlərinin təhlili, aydın göstərir ki, hüququn üstünlüyü, dövlət həyatının hüquqi təşkili, hakimiyyət bölgüsü və qanunun aliliyi əsasında insan ayrılmaz təbii hüquq və azadlıqlarının liberal doktrinaları, məhz Con Lokk tərəfindən işlənilmişdir. Qeyd etmək lazımdır ki, Con Lokkun insan hüquqları haqqında dəyərli təlimləri həm də azadlıqla qanun arasındakı zəruri daxili əlaqənin təhlili kimi nəzərdən keçirilə bilər. O, hesab edirdi ki, qanun haqqında deyilənlərin və yazılanların böyük əksəriyyəti yanlışdır. Qanunun məqsədi azadlıqların məhdudlaşdırılması və məhv edilməsi deyil, əksinə, onun qorunması və genişləndirilməsidir. Qanunun olmadığı yerdə azadlıqdan danışmaq üçün əsas yoxdur. C.Lokkun fikrincə, ictimai müqavilə siyasi həyatın daimi fəaliyyətdə olan amilidir, xalqla dövlət arasındakı müqavilə münasibətləri fasiləsiz prosesdir. Bu münasibətlər fərdin və ümumilikdə, xalqın hakimiyyətin fəaliyyətindən razılığı prinsiplərindən irəli gəlir.

Artıq birinci paraqrafda, nəzərdən keçirdiyimiz kimi, XVIII əsrdə əsas insan hüquq və azadlıqları ilə bağlı bir sıra olduqca əhəmiyyətli sənədlər hazırlanmışdır. Bunlardan 1776-cı ildə C.Medison tərəfindən hazırlanmış "Virciniya hüquqları deklarasiyası"nı xüsusi qeyd etmək mümkündür. Belə ki, bu deklarasiya insan hüquqlarının ilk dövlət müəyyənləşməsi idi. K.Marks bu mühüm tarixi sənədin hazırlanmasını kifayət qədər yüksək qiymətləndirmişdir. Belə ki, K.Marks yazmışdır ki, Amerika böyük demokratik respublikası ideyasının, ilk insan hüquqlarının deklarasiyasının meydana gəldiyi ölkədir. Onun fikrincə, XVIII əsr Avropa inqilablarının ideya əsasları, məhz Amerikadan gəlmişdir. Qeyd edək ki, insan və vətəndaş hüquqları ilə bağlı nəzəriyyə və praktikanın sonrakı inkişafı, məhz bu dövrdə meydana gəlmiş sənədlərin, yanaşmaların təsiri altında getmişdir. 1789-cu il İnsan və Vətəndaş Hüquqları Deklarasiyası, əsasən, Almaniya, Rusiya və Şərqi Avropa ölkələrində bu istiqamətdə proseslərə təsir etmişdir. 1789-cu il İnsan və Vətəndaş Hüquqları Deklarasiyasında insan hüquqları mütləqləşdirilmişdir, deklarasiyada əsas insan hüquqları daimi və müqəddəs kimi qiymətləndirilmişdir. İnsan hüquqlarının ayrılmazlığı və bölünməzliyi qəti şəkildə əksini tapmışdır. Bu baxımdan, hesab edirik ki, 1789-cu il İnsan və Vətəndaş Hüquqları Deklarasiyası sonrakı mərhələdə əsas insan hüquq və azadlıqlarına dair nəzəriyyənin inkişafında həlledici rol oynamışdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs





# YAP Samux rayon təşkilatının ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə müşavirə keçirilib

Dünən YAP Samux rayon təşkilatının ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov açaraq, Yeni Azərbaycan Partiyası Mərkəzi Qərargahında şəhər və rayon təşkilatları sədrlərinin iştirakı ilə keçirilən müşavirədə partiyanın ərazi ilk partiya təşkilatları qarşısında mühüm vəzifələrin və böyük məsuliyyətin qoyulduğunu bildirib: "Müşavirədə bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun qarşıdan gələn bələdiyyə



seçkilərinə hazırlıqla bağlı tapşırıq və tövsiyələrini verdi. Xüsusilə, ilk təşkilatlarda təşkilatlanma işinin gücləndirilməsi, partiya fəallarının gücündən səmərəli istifadə edilməsi, partiyaya qəbulla bağlı yeni kriteriyalar, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, ölkəmizin inkişaf səviyyəsinin kütləyə çatdırılmasında fəal təbliğatçı olmaları ən vacib məsələdir. Hər bir partiya üzvü bu işdə daha məsuliyyətli, daha fəal olmalı, Prezidentimiz ətrafında sıx birləşməli, yad ünsürlərə münasibətdə mövqeyimizi ortaya qoymalıyıq".

***R.HÜSEYNOVA***

# YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin şura iclası keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı gənclər birliyinin şura iclası keçirildi. İclasda gənclər birliyinin Fəaliyyət Planı və gənclərin sosial şəbəkələrdə fəallığının artırılması ilə bağlı bir sıra məsələlər geniş müzakirə olundu.

İclası giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi: "Bu məqsədlə müstəqil Azərbaycanda gənclər



siyasətini həyata keçirmək üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratmışdır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir dövrdə gənclər siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Bu gün Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf, təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycanın maliyyə-iqtisadi potensialı artdıqca, bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və yüksək intellektli və vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir".

Təşkilatın gənclər birliyinin sədri Rüfət Əhmədov çıxışında bildirdi ki, heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması və inkişafı üçün təməl daşıdır: "Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. "Gənclər birliyinin şura üzvləri Məmmədov Aqşin, Bünyadov Mehdi, Mahmudov Tosif, Mirzəyev Vilayət çıxış edərək, bildirdilər ki, bundan sonra da partiya həyatında daha da fəal iştirak edəcəklər. Həmçinin, gənclərin fəallığı ilə bağlı öz təkliflərini irəli sürdülər. İclasın sonunda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov ideoloji sahədə fəaliyyətin gücləndirilməsi, sosial şəbəkələrdə aktivliyin artırılması üçün tövsiyə və tapşırıqlarını verdi.

***RÖVŞƏN***

# YAP Kürdəmir rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrləri ilə geniş yığıncaq keçirilib



Dünən cari ilin sonunda ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işləri ilə bağlı ərazi ilk partiya təşkilatı sədrləri ilə görüş keçirilib. İclası giriş sözü ilə açan YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, bu ilin dekabr ayında respublikamızda mühüm siyasi kampaniya - bələdiyyə seçkiləri keçiriləcəkdir: "Artıq bələdiyyə seçkilərinə qeyri-rəsmi start verilmişdir. Hamımıza yaxşı məlumdur ki, seçkilər partiyamızın həyatında mühüm sınaq dövrüdür. Hal-hazırda, rayon təşkilatımızın apardığı bütün işlər bələdiyyə seçkilərinə hazırlıq səviyyəsində həyata keçirilməkdədir".

A.Kərimli onu da qeyd edib ki, 21 nəfərdən ibarət yaradılmış seçki qərargahı partiyada fəallığı ilə seçilən, rayonda nüfuza malik olan, seçki prosesində iştirak etməyə həvəsi və müəyyən təcrübəsi olan şəxslərdir: "Artıq bələdiyyə üzvlüyünə namizədlər müəyyən edilmiş və partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük verilmişdir. YAP İcra Katibliyinin tapşırıqlarına uyğun olaraq, bələdiyyə seçkiləri ilə əlaqədar dairə və məntəqələrdə fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlər, partiyamızın namizədlərinin müdafiəsi üçün seçici imzası toplayacaq şəxslər, seçki dairəsi və məntəqələrində müşahidəçilər, mobil qruplar müəyyənləşdirilmişdir". Daha sonra gündəliyə uyğun olaraq, seçki müddəti ərzində, həyata keçiriləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb.

***R.KAMALQIZI***

## ELAN

Şəfiyev Əflatun Bayram oğluna məxsus olan Bakı şəhəri, Suraxanı rayonu Əmircan qəsəbəsi, S.Fətəlizadə küçəsi, 4 saylı fərdi yaşayış evinin A tikili 1/4 hissəsinə verilmiş çıxarış (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xarici dil müəllimliyi (ingilis) ixtisası üzrə I kurs tələbəsi Yusubova Ayişə Əmrah qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

* * *

"BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağının çağırılması haqqında məlumat.

24.10.2019-cu il tarixdə, saat 12:00-da, Bakı ş., Xətai rayonu, Yusif Səfərov 27 ünvanında "BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin səhmdarlarının ümumi yığıncağının növbədənkənar iclası çağırılır.

Səhmdarların ümumi yığıncağının növbədənkənar iclasının gündəliyi ilə şirkətin ofisində tanış olmaq olar.

"BTB Kapital İnvestisiya Şirkəti" ASC
Bakı ş., Xətai rayonu, Yusif Səfərov 27"

* * *

ADİV-in "Biznesin idarə edilməsi" ixtisasının II kurs tələbəsi Sadıqova Elmira Qalib qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

İsmayılova Ziyafət Zaman qızına məxsus Şövkət Məmmədova küçəsi ev 3, mənzil 39 ünvanının dövlət reystrindən çıxarışı (KUPÇA) itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**